**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# “İŞĞALDAN AZAD OLUNMUŞ RAYONLARIN İQTİSADİ İNKİŞAFININ TƏMİN OLUNMASINA BEYNƏLXALQ MALİYYƏ TƏŞKİLATLARININ CƏLB OLUNMASI”

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**Zeynalov Asif Adil oğlu**

**BAKI – 2022**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**
**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh oğlu**
**__________________________ imza**
**“____” _______________ 2022-ci il**

# “İŞĞALDAN AZAD OLUNMUŞ RAYONLARIN İQTİSADİ İNKİŞAFININ TƏMİN OLUNMASINA BEYNƏLXALQ MALİYYƏ TƏŞKİLATLARININ CƏLB OLUNMASI”

**mövzusunda**

## MAGİSTR DİSSERTASİYASI

**İxtisasın şifri və adı:** 060403-Maliyyə
**İxtisaslaşma:** Maliyyə Menecmenti
**Qrup:** 646

**Magistrant:**
**Zeynalov Asif Adil oğlu**

**___________________imza**

**Elmi rəhbər:**
**i.ü.f.d., dos. Musayev Gəray Cümşüd oğlu**
**_____________________ imza**

**Proqram rəhbəri:**
**i.ü.f.d. Vəliyev Cəbrayıl Xəlil oğlu**
**_____________________ imza**

**Kafedra müdiri:**
**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi oğlu**
**_____________________ imza**

**BAKI - 2022**

## Elm andı

Mən, Zeynalov Asif Adil oğlu and içirəm ki, "İşğaldan azad olunmuş rayonların iqtisadi inkişafının təmin olunmasına Beynəlxalq Maliyyə Təşkilatlarının cəlb olunması" mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

## İŞĞALDAN AZAD OLUNMUŞ RAYONLARIN İQTİSADİ İNKİŞAFININ TƏMİN OLUNMASINA BEYNƏLXALQ MALİYYƏ TƏŞKİLATLARININ CƏLB OLUNMASI


## XÜLASƏ

**Mövzunun aktuallığı. Bu gün milli pul və kapital bazarlarının bir-biri ilə əlaqəli olduğunu və qlobal maliyyə sistemini təşkil etdiyini inkar etmək olmaz. Maliyyə xidmətlərinin inkişafı və beynəlxalq səviyyədə əldə etdiyi sürət, telekommunikasiya və informasiya texnologiyaları sahəsindəki irəliləyişlər sayəsində maliyyə institutları arasında beynəlmiləlləşmə müşahidə olunur. Birjaların və vasitəçi qurumların kompüterləşdirilməsi və bazar iştirakçıları arasında şəbəkələrin yaradılması maliyyə sistemində əməliyyat həcminin bugünkü səviyyələrə çatması üçün ən mühüm amillərdəndir.**

**2020-ci ildə Azərbaycan, torpaqlarının bütövlüyünün bərpasını tam təmin etmək yolunda, 44 günlük Vətən müharibəsində, 1992-ci ildən düşmən tapdağında olan rayonlarını işğaldan azad etdi. Bununla da, həmin ərazilərin müasir dövrdə iqtisadi potensialının öyrənilməsi, buraya xarici kapitalın cəlb olunması istiqamətləri və beynəlxalq maliyyə təşkilatlarının dəstəyi ilə layihələrin hazırlanması məsələsi aktual vəziyyət aldı.**

**Tədqiqatın məqsəd və vəzifələri. Tədqiqatın məqsədi işğaldan azad olunmuş ərazilərin investisiya potensialını araşdırmaq və Beynəlxalq Maliyyə təşkilatları tərəfindən kapitalın işğaldan azad olunmuş ərazilərə cəlb olunması ilə bağlı praktiki tövsiyələr hazırlamaqdır.**

**Tədqiqatın nəzəri-metodoloji əsasları. Tədqiqatın nəzəri əsası yerli və xarici alimlərin, Beynəlxalq Maliyyə Təşkilatlarının fəaliyyət istiqamətləri ilə bağlı iqtisadçıların əsərlərində verilmiş konseptual müddəalar və nəticələr olmuşdur.**

**İstifadə olunacaq tədqiqat metodunun seçiminin əsaslandırılması. Tədqiqat zamanı statistik məlumatların təhlili və emalı və qrafiki təhlil metodlarından istifadə olunmuşdur.**

**Tədqiqatın gözlənilən elmi və praktiki nəticələri. Nəticələrin praktiki əhəmiyyəti ondan ibarətdir ki, əldə edilmiş elmi və metodiki nəticələr işğaldan azad olunmuş rayonların iqtisadi potensialının və inkişaf perspektivlərinin öyrənilməsi üçün konkret tövsiyələr gətirir.**



***Açar sözlər: beynəlxalq maliyyə təşkilatları, işğaldan azad olunmuş rayonlar, iqtisadi inkişaf.***

# INVOLVING INTERNATIONAL FINANCIAL ORGANIZATIONS TO ENSURE THE ECONOMIC DEVELOPMENT OF THE RELEASED REGIONS


## SUMMARY

**Relevance of the topic. There is no denying that today the national money and capital markets are interconnected and form a global financial system. Internationalization is taking place among financial institutions due to the development of financial services and the progress made at the international level in the field of telecommunications and information technology. The computerization of exchanges and intermediaries and the creation of networks among market participants are among the most important factors in bringing the volume of transactions in the financial system to today's levels.**

**During the 44-day Patriotic War, in order to fully restore the integrity, in 2020, Azerbaijan liberated its lands, which had been under enemy occupation since 1992. Thus, the study of the economic potential of these areas in modern times, the direction of attracting foreign capital and the development of projects with the support of international financial institutions have become actual.**

**Research objectives. The aim of the investigation is to study the investment potential of the liberated territories and to develop practical recommendations for attracting capital to the liberated territories by the International Financial Institutions.**

**Theoretical and methodological bases of the research. The theoretical basis of the research was the conceptual provisions and conclusions given in the works of local and foreign scholars, economists on the activities of international financial institutions.**

**Research justification. The study has used statistical data analysis and processing and graphical analysis methods.**

**Expected scientific and practical results of the research. The practical significance of the results is that the obtained scientific and methodological results bring concrete recommendations for studying the economic potential and development prospects of the liberated territories.**



***Keywords: international financial institutions, liberated territories, economic development.***

## İXTİSARLAR VƏ İŞARƏLƏR

| | |
|---|---|
| **AİB** | Asiya İnkişaf Bankı |
| **AYİB** | Avropa Yenidənqurma və İnkişaf Bankı |
| **BMT** | Birləşmiş Millətlər Təşkilatı |
| **BVF** | Beynəlxalq Valyuta Fondu |
| **DB** | Dünya Bankı |
| **İİB** | İslam İnkişaf Bankı |
| **QDTİB** | Qara Dəniz Ticarət və İnkişaf Bankı |
| **ÜDM** | Ümumi Daxili Məhsul |
| **YİB** | Yeni İnkişaf Bankı |

**MÜNDƏRİCAT**

**GİRİŞ ........ 8**

**I FƏSİL. AZƏRBAYCANIN İQTİSADİ İNKİŞAFINDA BEYNƏLXALQ MALİYYƏ TƏŞKİLATLARININ ROLU ........ 12**

1.1. Beynəlxalq maliyyə təşkilatları: yaranması, məqsədi və nəzəri konsepsiyaları.12

1.2. Azərbaycanda beynəlxalq maliyyə təşkilatları ilə əlaqələrin konseptual məzmunu ........ 19

1.3. Azərbaycan iqtisadiyyatında Beynəlxalq Maliyyə Təşkilatları tərəfindən reallaşdırılan layihələr ........ 25

**II FƏSİL. İŞĞALDAN AZAD OLUNMUŞ REGİONLARIN MÜASİR VƏZİYYƏTİNİN TƏHLİLİ ........ 31**

2.1. İşğaldan azad olunmuş ərazilərin iqtisadi potensialının müasir vəziyyətinin təhlili ........ 31

2.2. İşğaldan Azad Olunmuş Rayonlarda İqtisadi İnkişaf Strategiyasının Əsas İstiqamətləri ........ 36

2.3. İşğaldan azad olunmuş rayonlara investisiya qoyuluşlarının risklərinin təhlili.42

**III FƏSİL. İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRƏ BEYNƏLXALQ MALİYYƏ TƏŞKİLATLARININ CƏLB EDİLMƏSİ İSTİQAMƏTLƏRİ.. 50**

3.1. İşğaldan azad olunmuş rayonlara beynəlxalq maliyyə təşkilatlarının cəlb edilməsinin strategiyasının hazırlanması ........ 50

3.2. İşğaldan azad olunmuş rayonlarda xüsusi inkişaf agentliklərinin qurulması .. 57

3.3. Davamlı inkişaf üçün beynəlxalq maliyyə təşkilatları ilə əməkdaşlığın genişləndirilməsi ........ 62

**NƏTİCƏ VƏ TƏKLİFLƏR ........ 69**

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI ........ 71**

Cədvəllərin siyahısı ........ 74

Qrafiklərin siyahısı ........ 74

Diaqramların siyahısı ........ 74

# GİRİŞ

**Mövzunun aktuallığı:** Bu gün milli pul və kapital bazarlarının bir-biri ilə əlaqəli olduğunu və qlobal maliyyə sistemini təşkil etdiyini inkar etmək olmaz. Maliyyə xidmətlərinin inkişafı və beynəlxalq səviyyədə əldə etdiyi sürət, telekommunikasiya və informasiya texnologiyaları sahəsindəki irəliləyişlər sayəsində maliyyə institutları arasında beynəlmiləlləşmə müşahidə olunur. Birjaların və vasitəçi qurumların kompüterləşdirilməsi və bazar iştirakçıları arasında şəbəkələrin yaradılması maliyyə sistemində əməliyyat həcminin bugünkü səviyyələrə çatması üçün ən mühüm amillərdəndir. Başqa sözlə, maliyyənin milli sərhədləri aşdığını və beynəlxalq bir fenomenə çevrildiyini ortaya qoyur. Təbii ki, yuxarıda ümumiləşdirilən bu inkişaflar birdən-birə meydana gəlməyib, bir çox siyasi, iqtisadi və texniki səbəblərə əsaslanır.

Beynəlxalq maliyyə institutları ölkələr arasında iqtisadiyyat, elm, ticarət, təhsil, texniki, siyasi, mədəni və siyasi sahələrdə əməkdaşlığın hər bir ölkənin maraqlarına uyğun olacağı inancı ilə yaradılmışdır. Bu təşkilatların məqsədi ölkələr arasında hər cür məsələlərlə bağlı məlumat mübadiləsini təmin etmək və bununla da dünya nizamını tarazlıqda saxlamaqdır. Bu məqsədlə üzv ölkələr mütəmadi olaraq digər ölkələr və ya təşkilatlarla qarşılıqlı əməkdaşlıq çərçivəsində fəaliyyətlərini həyata keçirirlər. İstər inkişaf etmiş, istərsə də inkişaf etməkdə olan ölkələrin beynəlxalq iqtisadi və maliyyə inteqrasiyası ilə üzləşdikləri problemləri həll etmək və ya yüngülləşdirmək imkanı var. İqtisadi və maliyyə inteqrasiyasının üstünlükləri, bazar genişliyinin və istehsal miqyasının böyüməsinin faydaları, artan rəqabət və sövdələşmə gücü kimi amillərdən danışmaq üçün ölkələri bu cür strukturlarda iştirak etməyə dəvət edir.

Azərbaycan tam müstəqillik əldə etdikdən sonra dərhal beynəlxalq təşkilatlarla əməkdaşlığa önəm verdi və xarici siyasətini bu istiqamətdə müəyyən etdi. 1994-cü ildə ölkədə hökm sürən siyasi sabitlik, iri neft ehtiyatlarının hasilatı və emalı ilə bağlı müqavilələrin imzalanması, bazar iqtisadiyyatına keçid şəraitində hüquqi infrastrukturun yaradılması istiqamətində görülən işlər beynəlxalq maliyyə təşkilatları ilə əməkdaşlığı daha da artırdı. Bu qurumların Azərbaycana kreditlər

verməyə başlaması, beynəlxalq maliyyə və iqtisadi qurumların proqram və layihələrindən yararlanaraq iqtisadi islahatların aparılması 1995-ci ildən ölkəyə xarici kapital axınının artmasına, 1990-cı ildən artan inflyasiyanın azalmasına, xarici resurslar problemi qismən həll olundu. İqtisadi inkişafı hədəfləyən Azərbaycan bu gün bəzi beynəlxalq iqtisadi təşkilatlara üzv olmuşdur. Bu təşkilatlar arasında Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı və İslam İnkişaf Bankının Azərbaycan iqtisadiyyatının inkişafında böyük rolu var. Bu təşkilatlar Azərbaycanın neft siyasətinin həyata keçirilməsində, qeyri-neft sahələrinin inkişafından tutmuş demokratik cəmiyyətin formalaşmasına qədər müxtəlif sahələrdə ölkəyə mühüm töhfələr veriblər.

Torpaqların işğal altında olması və istifadəsiz qalması illər boyu ölkə iqtisadiyyatının inkişafına mənfi təsir göstərmişdir (Əmiraslanov A, 1998). 2020-ci ildə Azərbaycan, torpaqlarının bütövlüyünün bərpasını tam təmin etmək yolunda, 44 günlük Vətən müharibəsində, 1992-ci ildən düşmən tapdağında olan rayonlarını işğaldan azad etdi. Bununla da, həmin ərazilərin müasir dövrdə iqtisadi potensialının öyrənilməsi, buraya xarici kapitalın cəlb olunması istiqamətləri və beynəlxalq maliyyə təşkilatlarının dəstəyi ilə layihələrin hazırlanması məsələsi aktual vəziyyət aldı.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi:** Dissertasiyanın problem sahəsi son zamanlarda iqtisadçılar tərəfindən diqqət mərkəzindədir. E.Süleymanov, V.Bayramov, V.Qasımlı, A.Quliyeva, S.E.Cornell, A.Vəliyev, A. Eminov və digər iqtisadçılar öz məqalələrində bu problemə xüsusi diqqət ayırmışdırlar.

Tədqiqat əsasında mövzu ilə bağlı həm Beynəlxalq Maliyyə Təşkilatıarının rəsmi saytlarında, həm Azəerbaycanın dövlət qurumlarının rəsmi saytlarında, həm də yerli və xarici ekspertlərin elmi əsərlərində yer alan məlumatlardan istifadə edilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri:** Tədqiqatın məqsədi işğaldan azad olunmuş ərazilərin investisiya potensialını araşdırmaq və Beynəlxalq Maliyyə təşkilatları tərəfindən kapitalın işğaldan azad olunmuş ərazilərə cəlb olunması ilə bağlı praktiki tövsiyələr hazırlamaqdır.

Dissertasiya işində aşağıdakı məqsəd və vəzifələr qoyulmuş və həll edilmişdir:

1. İşğaldan azad olunmuş ərazilərin iqtisadi potensialının müasir vəziyyətinin təhlili;
2. İşğaldan azad olunmuş rayonlarda iqtisadi inkişaf strategiyasının əsas istiqamətləri və investisiya qoyuluşlarının risklərinin təhlili;
3. İşğaldan azad olunmuş rayonlara Beynəlxalq Maliyyə Təşkilatlarının cəlb edilməsinin strategiyasının hazırlanması və bu ərazidə xüsusi inkişaf agentliklərinin qurulması;
4. Davamlı inkişaf üçün Beynəlxalq Maliyyə Təşkilatları ilə əməkdaşlığın genişləndirilməsi.

**Tədqiqatın obyekti və predmeti:** Tədqiqatın obyekti kimi işğaldan azad edilmiş rayonların iqtisadi potensialı çıxış edir.

Tədqiqatın predmeti işğaldan azad olunmuş rayonların iqtisadi potensialının Beynəlxalq Maliyyə Təşkilatları tərəfindən öyrənilməsi və əməkdaşlığın genişləndirilməsi üsullarıdır.

**Tədqiqat metodları:** Tədqiqat zamanı statistik məlumatların təhlili və emalı və qrafiki təhlil metodlarından istifadə olunmuşdur.

**Tədqiqatın informasiya bazası:** Dissertasiya işinin əsas informasiya bazasını mətbuatda yayımlanan məqalələr, rəsmi saytlar, yerli və xarici ədəbiyyatlar, ekspertlərin araşdırmaları təşkil edir.

**Tədqiqatın məhdudiyyətləri:** İşğaldan azad edilmiş rayonların iqtisadi göstəriciləri haqqında məlumat bazasının məhdud olması tədqiqatın əsas məhdudiyyətidir.

**Tədqiqatın elmi yeniliyi:** Tədiqiqatdan əldə edilmiş nəticəyə əsasən işğaldan azad edilmiş rayonlarda xüsusi inkişaf agentliklərinin yaradılması və hər rayonun iqtisadi potensialına uyğun yol xəritəsinin hazırlanması bu rayonların Azərbaycan iqtisadiyyatına tez bir zamanda inteqrasiya olunmasına töhfə verəcək.

**Tədqiqatın gözlənilən elmi və praktiki nəticələri:** Nəticələrin praktiki əhəmiyyəti ondan ibarətdir ki, əldə edilmiş elmi və metodiki nəticələr işğaldan azad

olunmuş rayonların iqtisadi potensialının və inkişaf perspektivlərinin öyrənilməsi üçün konkret tövsiyələr gətirir.

# I FƏSİL. AZƏRBAYCANIN İQTİSADİ İNKİŞAFINDA BEYNƏLXALQ MALİYYƏ TƏŞKİLATLARININ ROLU

## 1.1. Beynəlxalq maliyyə təşkilatları: yaranması, məqsədi və nəzəri konsepsiyaları

Dünyanın bir çox yerlərində beynəlxalq maliyyə təşkilatları inkişaf etməkdə olan və ya keçid iqtisadiyyatı olan ölkələrin sosial və iqtisadi inkişaf proqramlarında böyük rol oynayır. Bu rola inkişaf layihələri üzrə məsləhət vermək, onları maliyyələşdirmək və həyata keçirilməsinə kömək etmək daxildir.

Mövcud iqtisadi şəraitdə gözlənilməz vəziyyətlər və ya böhranlar zamanı dövlətin müəyyən maliyyə resurslarına ehtiyacı yaranır. Bununla belə, yığılan vəsaitlər çox vaxt ölkədə ortamüddətli perspektivdə iqtisadi vəziyyəti sabitləşdirmək üçün yetərli olmur, nəticədə dövlət dövri və ya sistemli böhranların nəticələrini aradan qaldırmaq üçün daxili və ya xarici borclanmalara müraciət etməli olur.

Əksər ölkələrdə ev təsərrüfatlarının və hüquqi şəxslərin kifayət qədər əmanət imkanları yoxdur, nəticədə maliyyə-iqtisadi kataklizmlər şəraitində əlavə vəsaitlər üçün kreditorlara müraciət etmək məcburiyyətində qalırlar. Lakin başa düşmək lazımdır ki, beynəlxalq təşkilatların maliyyə axınları yaranmış problemlərin operativ həllinə, xüsusilə dövlətin və ümumilikdə dünya iqtisadiyyatının yaxşılaşdırılmasına yönəlmiş investisiya layihələrinə yönəlmədikdə, borcalan dövlətin iqtisadiyyatına fayda etmir (Акбулаев, Н.Н. и Ахмадов, Т.А., 2018).

Çoxtərəfli İnkişaf Bankları (ÇİB) kimi də tanınan ilk Beynəlxalq Maliyyə Təşkilatları İkinci Dünya Müharibəsindən sonra müharibədən zərər çəkmiş ölkələrin bərpasına və qlobal maliyyə sistemini idarə etməyə kömək etmək üçün yaradılmışdır. Bu təşkilatlar aşağıdakılardır:

**Cədvəl 1: Yüksək reytinqli Beynəlxalq Maliyyə Təşkilatları**

| Təşkilatın adı | Yaranma tarixi | Reytinqi | Azərbaycan ilə əməkdaşlığa başladığı tarix |
|---|---|---|---|
| Dünya Bankı | 1944 | AAA | 1992 |
| Avropa İnvestisiya Bankı | 1958 | Aaa | 2014 |
| İslam İnkişaf Bankı | 1975 | Aaa | 1992 |
| Asiya İnkişaf Bankı | 1966 | Aaa | 1999 |
| Avropa Yenidənqurma və İnkişaf Bankı | 1991 | Aaa | 1992 |
| Afrika İnkişaf Bankı | 1964 | Aaa | - |
| Yeni İnkişaf Bankı | 2014 | Aa1 | - |
| Asiya İnfrastruktur İnvestisiya Bankı | 2016 | Aaa | 2016 |
| Qara Dəniz Ticarət və İnkişaf Bankı | 1999 | Aa2 | 1999 |

**Mənbə:** moodys.com

Kredit reytinqləri Bankın borclarını ödəmək və ya işini dayandırmaq ehtimalının nə qədər olduğunu təxmin edir. Bunu müəyyən edən etibarlı təşkilatlar var. Bu təşkilatlara Fitch Ratings, S&P's Global Ratings və Moody's Investor Services aiddir. Cədvəldən göründüyü kimi Aaa kredit reytinqi ən yüksək dərəcədir – mənası yüksək keyfiyyət, aşağı risk deməkdir. Aa1 reytinqi Aaa reytinqindən bir pillə aşağıdır. Bu reytinq növü də yüksək keyfiyyətli və çox aşağı riskli hesab edilir. Aa2 də siyahıda 3-cü yerdə hesab olunur. Yüksək keyfiyyəti olan aşağı riskli sabit gəlirli təşkilatların reytinqini ifadə edir.

Aaa kredit reytinqləri və borc alan və borc verən ölkələrin geniş üzvlüyü ilə xarakterizə olunan bu qurumların hər biri müstəqil fəaliyyət göstərir. Hər bir maliyyə qurumunun özünün məqsəd və vəzifələri fərqli olsa da, hamısı aşağıdakı ümumi məqsəd və vəzifələri paylaşır:

- qlobal yoxsulluğun azaldılması, insanların həyat şəraitinin və standartlarının yaxşılaşdırılması;
- davamlı iqtisadi, sosial və institusional inkişafı dəstəkləmək;
- regional əməkdaşlıq və inteqrasiyanı təşviq etmək.

**Dünya Bankı.** 1944-cü ilin iyulunda - İkinci Dünya Müharibəsinin bitməsinə bir il qalmış - Nyu-Hempşir ştatının Bretton Woods şəhərindəki Mount Vaşinqton otelində keçirilən Birləşmiş Millətlər Təşkilatının Valyuta və Maliyyə Konfransı

üçün 44 ölkənin nümayəndələri bir araya gəldi. Konfransın məqsədi müharibədən sonrakı beynəlxalq iqtisadi əməkdaşlıq və yenidənqurma üçün bünövrə yaratmaq idi. Dünya Bankı II. Dünya müharibəsindən sonra 1945-ci ildə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı (BYİB) adı ilə qurulmuş və daha sonra 1947- ci ildə Birləşmiş Millətlərin müstəqil ixtisaslaşmış təşkilatlarından biri olmuşdur. (Xəlləyev, 2020)

Konfrans iki qurumun: Beynəlxalq Valyuta Fondu (BVF) və Beynəlxalq Yenidənqurma və İnkişaf Bankının (Dünya Bankı) formalaşması ilə nəticələnsə də, Dünya Bankının (DB) yaradılması əsas diqqət mərkəzində deyildi. Vaxtın və səyin əksəriyyəti BVF Komissiyasına sərf edilirdi. Digər tərəfdən, Dünya Bankı Komissiyasının çıxışı yalnız konfransın son bir neçə günündə baş tutdu və onun razılaşma maddələri - Con Meynard Keyns tərəfindən hazırlanmış - müharibə nəticəsində dağılmış ölkələrin iqtisadiyyatlarının bərpasını və İnkişaf Etməkdə Olan (İEO) ölkələrin iqtisadi inkişafın artırılmasını ehtiva edirdi. (Anghie, A., 2004)

1970-ci illərə qədər inkişaf etməkdə olan ölkələrdə insanların 40%-dən çoxu mütləq yoxsulluq şəraitində yaşayırdı və buna cavab olaraq Dünya Bankının layihələri kasıblara birbaşa kömək etmək məqsədi daşıyırdı. Dünya Bankının prezidenti Robert MakNamara 1973-cü ildə İllik Yığıncaqdakı çıxışında “mütləq yoxsulluq” terminini işlətmiş və Dünya Bankının ikili məqsədini çatdıran ilk şəxs olmuşdur: “iqtisadi artımı sürətləndirmək və yoxsulluğu azaltmaq”. (Dünya İnkişaf Hesabatı, 1978). Bu konsepsiyalar Bankı bu gün bildiyimiz inkişafa yönəlmiş quruma çevirdi.

1990-cı illərdə Bank Sovet Sosialist Respublikaları İttifaqının dağılmasından sonra keçmiş sovet ölkələrinə öz iqtisadiyyatlarını istiqamətləndirməyə kömək etdi və bu yeni suveren dövlətlərin çoxu Dünya Bankına üzv oldular.

1990-cı illərin sonlarında Dünya Bankı yenidən münaqişələrin qarşısının alınması, münaqişədən sonrakı yenidənqurma və böyük siyasi dəyişikliklərdən sonra ölkələrə öz iqtisadiyyatlarını yönləndirməkdə yardım etmək üçün fəaliyyətlərə başladı.

2000-ci ildə Birləşmiş Millətlər Təşkilatı ilə Minilliyin İnkişaf Məqsədləri proqramında və daha sonra 2015-ci ildə Dayanıqlı İnkişaf Məqsədləri ilə əməkdaşlıq edərək Dünya Bankı ictimaiyyət əsaslı inkişaf və yardım koordinasiyası ilə həssas qrupları qorumaq üçün işləmək və iqlim dəyişikliyinin təsirini azaltmaq üçün hərəkətə keçdi.

**Beynəlxalq Valyuta Fondu**. Yuxarıda qeyd olunduğu kimi Beynəlxalq Valyuta Fondunun da təməli Dünya Bankı kimi İkinci Dünya müharibəsi illərində - 1944-cü ildə qoyulmuşdur. İlk təsis edildiyi vaxt 44 ölkə üzv olsa da, hazırda 190 ölkə Fondun üzvüdür. BVF-nin əsas məqsədi tədiyyə balansında faktiki və potensial problem yaşayan üzv ölkələrə borc verməkdən ibarətdir. BVF-nin maliyyə resurslarının əsas mənbəyi üzv ölkələrdən olan kvotalardır. Üzv ölkənin etdiyi kvota onun ölçüsünü və dünya iqtisadiyyatındakı mövqeyini əks etdirir. Bunları nəzərə alaraq demək olar ki BVF-nin əsas məqsədləri bunlardır:

- Beynəlxalq pul əməkdaşlığını təşviq etmək;
- Beynəlxalq ticarətin genişlənməsinə və balanslaşdırılmış artımına kömək etmək;
- Mübadilə sabitliyini təşviq etmək;
- Tədiyyə balansı ilə bağlı çətinliklərlə üzləşən üzvləri resurslarla təmin etmək.

Ümumi məqsədlərə baxmayaraq, Bretton Woods "əkiz"lərinin mandatları müxtəlif kadr prioritetlərinə səbəb olmuşdur. BVF ilk növbədə təcili maliyyə böhranları kimi qısa və orta müddətli problemlərin həllinə diqqət yetirir, Dünya Bankının inkişaf və yoxsulluğun aradan qaldırılması məqsədləri isə daha uzunmüddətli perspektivə malikdir. Bu prioritetlər öz növbəsində fərqli təşkilat mədəniyyətlərinin yaranmasına səbəb olmuşdur. (Babb, S.L. and Kentikelenis, A.E., 2018)

**Avropa İnvestisiya Bankı.** Avropa İnvestisiya Bankının (AİB) əsası 1958-ci ildə qoyulmuşdur. Yarandığı tarixdən bugünə qədər bir trilyon avrodan çox investisiya etmişdir. AİB Avropada yaransa da, hazırda 160-dan çox ölkə ilə işləyirlər. Bu ölkələr həm Avropa ölkələri, həm də qeyri – Avropa ölkələri  aiddir.

AİB-in əsas fəaliyyət istiqamətləri aşağıdakılardır:

- İqlim və ətraf mühit;
- İnkişaf və innovasiya;
- Kiçik və orta biznesə dəstək.

Buradan belə bir nəticəyə gəlmək olar ki, Dünya bankı və BVF-dan fərqli olaraq, AİB dövlətlərlə yanaşı fiziki və hüquqi şəxslərlə də əməkdaşlıq edir.

**İslam İnkişaf Bankı.** İslam İnkişaf Bankı (İİB) üzv ölkələr və dünyadakı bütün müsəlman icmaları sosial və iqtisadi inkişafına təşviq edən və geniş miqyasda təsir göstərən çoxtərəfli inkişaf bankıdır. İİB-nin əsası 1973-cü ildə, faizsiz bank-maliyyə sistemi fenomeninin geniş yayılmağa başladığı dövrdə qoyulmuşdur. Bütün insanların rifah içində yaşamaq hüququnun olduğunu qeyd edən bankın əsas məqsədi iqtisadi inkişafa dəstək verərək yoxsulluğun azalmağını təmin etməkdir. Azərbaycan 1992-ci ildən etibarən İslam İnkişaf Bankının üzvüdür.

**Asiya İnkişaf Bankı.** Asiya İnkişaf Bankı (AİB) 1960-cı illərin əvvəllərində Asiya xarakteri daşıyacaq və dünyanın ən yoxsul regionlarından biri olab Asiyada iqtisadi artım və əməkdaşlığa kömək etmək məqsədilə yaradılmış maliyyə institutudur. AİB-in yardımların 80%-i təhsil, ətraf mühit, infrastruktur, maliyyə sektorunun inkişafı və regional əməkdaşlıq və inteqrasiya olmaqla 5 fəaliyyət sahəsinə istiqamətlənib.

**Avropa Yenidənquram və İnkişaf Bankı.** Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) maliyyə təşkilatları arasında qurulmuş ən gənc təşkilatlardan biridir. AYİB-in yaranma səbəblərdən biri Mərkəzi Asiya və Şərqi Avropada 1990-cı illərdə yaşanmış siyasi və iqtisadi vəziyyətlə də əlaqədardır. Həmin illərdə SSRİ süqut etmiş və onun tərkibindəki dövlətlər keçid dövrünə xas çətinliklərlə üzləşmişdilər. Bu illərdən başlayaraq günümüzə qədər AYİB Mərkəzi Avropadan Mərkəzi Asiyaya qədər bir çox dövlətin iqtisadiyyatına əsaslı töhfələr vermişdir.

Bankın Azərbaycandakı fəaliyyəti aşağıdakı sahələri əhatə edir:

1. Qeyri-neft sektorlarında özəl sektorun inkişafını dəstəkləmək, özəl və dövlət şirkətlərinin idarəçiliyini gücləndirməklə Azərbaycan iqtisadiyyatının şaxələndirilməsinə kömək etmək;

2. Bank və qeyri-bank maliyyə institutları tərəfindən kreditləşməni təşviq etməklə, eləcə də yerli valyuta və kapital bazarlarını inkişaf etdirməklə yerli bizneslərin maliyyə bazarlarına çıxışını daha da genişləndirmək;
3. Ölkədə yaşıl iqtisadiyyatın dəstəklənməsi, o cümlədən bərpa olunan enerji mənbələrinin maliyyələşdirilməsi, enerji səmərəliliyinin artırılması, daha təmiz nəqliyyat və dayanıqlı infrastruktur qurmaq.

**Afrika İnkişaf Bankı.** Hamımıza bəllidir ki, planetimizin ən yardıma ehtiyacı olan ölkələri Afrikada yerləşən dövlətlərdir. Bu ölkələrdə uzun müddət müstəmləkə rejiminin olmağı onların bazar iqtisadiyyatının formalaşmağına mane olmuşdur. Bunun nəticəsidir ki, aclığın, işsizliyin, bərabərsizliyin ən yuxarı həddi məhz bu ölkələrdədir. Afrika İnkişaf Bankının da əsas məqsədi regional üzv ölkələrdə davamlı iqtisadi inkişafa və sosial tərəqqiyə təkan verməklə yoxsulluğun azaldılmasına nail olmaqdır.

**Yeni İnkişaf Bankı.** Yeni İnkişaf Bankı digər adı ilə BRİCS İnkişaf Bankı 2014-cü ildə yaradılmışdır. Bankın məqsədi BRİCS ölkələri və digər inkişaf etməkdə olan ölkələrdə həyata keçirilən davamlı inkişaf layihələrinə dəstək verməkdir.

Yeni İnkişaf Bankı (YİB) Braziliya, Rusiya, Hindistan, Çin və Cənubi Afrika (birlikdə BRİCS ölkələri) tərəfindən 2014-cü ilin iyulunda yaradılıb və bir il sonra fəaliyyətə başlayıb. YİB 21-ci əsrin çoxtərəfli inkişaf bankıdır və qlobal tendensiyaların yaratdığı çağırışların öhdəsindən gəlməyə qadir siyasətlər və təcrübələr hazırlamaq üçün mövcud institutların təcrübələrinə əsaslanır. Bankın yaradılması BRİKS və digər inkişaf etməkdə olan bazar və inkişaf etməkdə olan ölkələrin dünya iqtisadiyyatında artan rolunun və beynəlxalq iqtisadi idarəetmə və inkişaf məsələlərində müstəqil fəaliyyət göstərmək istəyinin ifadəsidir.

Bank, təsisçi üzvlərin və digər inkişaf etməkdə olan ölkələrin investisiya ehtiyaclarına töhfə vermək üçün çoxtərəfli inkişaf banklarının - inkişaf məqsədləri üçün kapitaldan istifadə etmək üçün hökumətlər tərəfindən yaradılmış maliyyə institutlarının sübut edilmiş maliyyə modelindən istifadə edəcəkdir. Bu Ümumi Strategiya 2017-2021 YİB-in öz mandatını necə yerinə yetirmək niyyətində

olduğunu göstərir. Qarşıdakı beş il üçün əsas məqsəd 2015-ci ilin iyul ayında fəaliyyətə başlayandan bəri əldə edilmiş tərəqqiyə əsaslanaraq YİB-ni inkişaf üzrə əməkdaşlıq xidmətlərinin etibarlı təminatçısı və səhmdarlar və investorlar tərəfindən töhfə verən resursları etibarlı şəkildə qoruyan maliyyə vasitəçisi kimi möhkəm şəkildə qurmaqdır.

**Asiya İnfrastruktur İnvestisiya Bankı.** Azərbaycanın da üzv olduğu Asiya İnfrastruktur İnvestisiya Bankı (AİİB) 2014-cü ildə yaradılsa da, fəaliyyətinə 2016-cı ildə başlamışdır.

Asiya regionu Yer kürəsinin ən dinamik və məhsuldar bölgələrindən biridir, lakin sərmayə çatışmazlığının səbəb olduğu infrastrukturda böyük məhdudiyyətlər səbəbindən öz potensialını tam reallaşdıra bilmir. 2018-ci ildə Asiya Maliyyə Böhranının 20-ci ildönümünü qeyd etdi. Son zamanlarda artan diqqət, böhrandan sonrakı illərdə bir çox Asiya iqtisadiyyatında investisiyaların necə aşağı düşdüyü və bu gün gördüyümüz infrastruktur boşluğunu məsələsinə yönəldilmişdir. Asiya regionunda infrastrukturun ticarət və iqtisadi coğrafiyadakı dəyişikliklərə uyğunlaşması üçün böyük imkanlar var. Məsələn, bərpa olunan enerji ticarətdə tələb və təklif arasındakı əlaqə süni hüdudlardan kənara çıxa bilər. Eynilə, bir çox infrastruktur layihələri yalnız bir şəbəkə kimi digər ölkələr və regionlarla əlaqələndirildikdə iqtisadi məna kəsb edə bilər. Bankın əsas məqsədi Asiya ölkələrində iqtisadi və sosial vəziyyətin yaxşılaşdırılmasını təmin etməkdir.

**Qara Dəniz Ticarət və İnkişaf Bankı.** Qərargahı Yunanıstanın Saloniki şəhərində yerləşən beynəlxalq maliyyə təşkilatı olan Qara Dəniz Ticarət və İnkişaf Bankı (QDTİB) Albaniya, Ermənistan, Azərbaycan, Bolqarıstan, Gürcüstan, Yunanıstan, Moldova, Rumıniya, Rusiya, Türkiyə və Ukrayna tərəfindən 1999-cu ildə yaradılmışdır. QDTİB-in nizamnamə kapitalı 3,45 milyard avro təşkil edir. Bank, ticarət və layihənin maliyyələşdirilməsi kreditləri, zəmanətlər və üzv ölkələrin özəl müəssisələrində və ictimai qurumlarda iştirak payı vasitəsilə Qara dəniz regionunda iqtisadi inkişafı və regional əməkdaşlığı dəstəkləyir. Azərbaycanın QDTİB-də üzvlük payı 5% təşkil edir. Bankın məqsədi beynəlxalq layihələri

maliyyələşdirmək və Qara dəniz regionunda dövlət və özəl qurumlara maliyyə xidmətləri göstərməklə iqtisadi artımı və regional əməkdaşlığı təşviq etməkdir.

## 1.2. Azərbaycanda beynəlxalq maliyyə təşkilatları ilə əlaqələrin konseptual məzmunu

Azərbaycanın Beynəlxalq Maliyyə Təşkilatları ilə əlaqələri 20-ci əsrin sonlarına təsadüf edir. 1989-1994-cü illərdə baş verən siyasi hadisələr ölkə iqtisadiyyatının tənəzzülə uğramasına səbəb olmuşdur. Bu siyasi hadisələrin başında ilk olaraq SSRİ-nin dağılması dayanır. SSRİ və sosialist rejimin dağılmasından sonra bazar iqtisadiyyatına keçid üçün zərurət yarandı. İllərdir sosialist rejimdə yaşayan xalqlar üçün kapitalist rejiminə keçmək ciddi çətinliklər yaradırdı. Belə bir şəraitdə Beynəlxalq Maliyyə Təşkilatlarla əməkdaşlıq qaçınılmaz idi. Buna görə də qısa bir müddətdə beynəlxalq təşkilatlar ilə əməkdaşlığa başlandı. İlk əməkdaşlıq qurulan təşkilatlar BVF, DB və İİB idi. Bu təşkilatlar ilə əməkdaşlıq iqtisadiyyatın dirçəlməsinə böyük təkan verdi.

Beynəlxalq Maliyyə Təşkilatları ilə əməkdaşlıq 1992-ci ildən başladı və həmin vaxtdan etibarən Azərbaycan iqtisadiyyatı sürətli inkişafa qədəm qoydu. Sürətli inkişaf üçün lazımlı faktorlardan biri də beynəlxalq qurumlar tərəfindən edilən sərmayənin düzgün istifadəsinin təşkili idi. Sərmayənin səmərəli istifadəsini buradan görə bilərik ki, 2005-ci ildə yəni 13 ildən sonra, ÜDM-nin 26.4% faiz artımı ilə Azərbaycan dünyada iqtisadiyyatı ən sürətlə inkişaf edən ölkələri siyahısında liderlik etmişdir.

Yuxarıda qeyd etdiyim kimi Azərbaycan DB və BVF ilə əməkdaşlığa 1992-ci ildə başlamış və bu tarixdən etibarən iqtisadiyyatın inkişafı üçün fəaliyyət istiqamətləri müəyyən olunmuşdur. Bu fəaliyyət istiqamətləri aşağıdakılardır:

1. **İqtisadiyyatda özəlləşdirmə.** Bazar iqtisadiyyatı şəraitində özəlləşdirmə böyük əhəmiyyətə malikdir. Azərbaycanda bu proses gec, 1995-ci ildən, başlasa da, sürətlə inkişaf edir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu ildə fəaliyyəti haqqında "İcmal Hesabatı"nda qeyd olunmuşdur ki,

2019-cu ildə sənaye məhsulunda özəl sektorun payı 82.1%-ə yüksəlmişdir. Qeyd etmək lazımdır ki, 1990-cı illərdə bu rəqəm 20%, 2000-ci illərdə isə 34.5% təşkil edirdi.

2. **Büdcə kəsirinin aradan qaldırılması.** Statistik məlumatlara baxdıqda görə bilərik ki, 1994-cü ildə büdcə kəsiri 143 milyon dollar olmuşdur. Belə bir şəraitdə büdcə kəsirinin aradan qaldırılması istiqamətində işlərin aparılması ən mühüm işlərdən biri idi. Həmin illərdə büdcəyə mədaxilin artması üçün ölkəyə valyuta axınını və inflyasiyanın azaldılmasını təmin etmək məqsədilə ciddi islahatlar həyata keçirilmişdir.
3. **Qiymət sərbəstləşməsi.** Bazar iqtisadiyyatın ən önəmli xüsusiyyətlərindən biri də qiymətdə sərbəstləşmədir. Belə bir şəraitdə müəssisələr arasında rəqabət formalaşır və bunun nəticəsində iqtisadiyyatda inkişaf özünü büruzə verir. Bunun həyata keçirilməsi üçün diqqət edilməsi lazım olan faktorlar var. Sərbəstləşmənin hansı sahələri əhatə edəcəyi, insanların bu dəyişikliyə nə dərəcədə hazır olmaları və s. nəzərə alınmalıdır.
4. **Struktur dəyişikliklərinin həyata keçirilməsi.** Struktur dəyişikliklərinin həyata keçirilməsi üçün iqtisadi islahatların keçirilməsi şərtdir. Sistemli şəkildə həyata keçirilən iqtisadi islahatlar ölkədə yeni iqtisadi münasibətlərin yaranmasına və inkişafına təkan verir.

Azərbaycan BVF və DB ilə münasibətlərə 1992-ci ildən başlasa da, ölkədə siyasi sabitliyə 1995-ci ildə nail olunmuş, "Əsrin müqaviləsi" bağlanmış və yalnız bundan sonra maliyyə təşkilatlarında ölkənin gələcəkdə verilən borcu ödəyəcəyinə dair əminlik yaranmışdır.

1995-ci ildə BVF-nin Direktorlar şurasının razılığı ilə Azərbaycana Sistemli Transformasiya (STF) xətti ilə ilk kredit ayrılmışdır. Bu kreditin məbləği 89 milyon dillor həcmində olmuşdur. Bu vasitə ilə həyata keçirilmiş iqtisadi islahatlar nəticəsində 1995-ci ilin sonunda inflyasiyanın dərəcəsi 50%-dən 2.5%-ə qədər düşmüşdür (Beynəlxalq Maliyyə Təşkilatları və Azərbaycan, 2016). 1995-ci ildə ayrılmış ilk kreditdən sonra ölkədə baş verən struktur dəyişikliklər, inflyasiya dərəcəsinin uzun müddət sabit qalması, büdcə kəsirinin azalması kimi amillər digər

təşkilatların də ölkəyə cəlb olunmasına şərait yaratdı. Belə ki, 2012-ci ilin sonunda Beynəlxalq Maliyyə Təşkilatları tərəfindən ayrılan kreditin həcmi 6 milyard dolları keçmişdir.

Beynəlxalq Maliyyə Təşkilatları tərəfindən cəlb olunan kreditlər dövlətin xarici borcunun artmağına səbəb olur. Xarici borcun tənzimlənməsi üçün borcu bu və ya digər şəkildə azaltmaqdan keçir. Azərbaycanın xarici borcu 2020-ci məlumatlarına əsasən ÜDM-nin 20.7%-i təşkil edir. Xarici borcun çox olmağı ölkənin inkişafından xəbər verir. Çünki beynəlxalq təşkilatlar inkişaf etməmiş, borcu ödəmək potensialı olmayan ölkələrə borc verməkdə tərəddüd edirlər. Xarici borcu olan ölkə bunu müxtəlif yollarla qaytara bilər. Bu yollardan biri *ənənəvi yoldur*. Ənənəvi yolla borcun ödənilməsi zamanı borc ölkənin qızıl ehtiyatları vasitəsilə ödənilir. İkinci üsulda borcu olan ölkə *BVF-ə müraciət* edir. Xarici borc ödənilməsində geniş yayılmış yollardan biri də *xarici borcun konversiya edilməsidir*. Borcun konversiya edilməsi onun uzun müddətli investisiyaya çevrilməsi deməkdir. Yəni borcu olan ölkə bunun qarşılığında öz mülkiyyətinin bir hissəsini borc verən ölkəyə təklif edir. Beləliklə həm xarici borcun ödənilməsi təmin olunur, həm də ölkəyə xarici kapital cəlb olunur.

Azərbaycanın ölkə iqtisadiyyatının inkişafına cəlb etdiyi xarici kreditləri bir neçə qrupa ayırmaq olar:

1. **Birbaşa kreditlər.** Bu kredit növü birbaşa maliyyə institutundan verilən kreditdir. Birbaşa maliyyələşdirmə vasitəçini aradan qaldırır. Bu növ borclar ümumi xarici borcun 17%-i təşkil edir.
2. **BVF kreditləri.** BVF kreditlərinin xüsusiyyəti ondan ibarətdir ki, o sürətli kredit mexanizminə malikdir. Sürətli kredit mexanizminin köməyi ilə tədiyyə balansında problemi olan aztəminatlı ölkələrə sürətli güzəştli maliyyə yardımı edilir.
3. **Zəmanətli kreditlər.** Zəmanətli kredit, borcalanın öhdəliklərini yerinə yetirmədiyi halda üçüncü tərəfin zəmanət verdiyi (və ya borc öhdəliyini üzərinə götürdüyü) kreditdir. Bəzən zəmanətli kreditə dövlət qurumu zəmanət verir, o,

borc verən maliyyə institutundan borc alıb kredit üçün məsuliyyəti öz üzərinə götürür.

4. **Güzəştli borclar.** Güzəştli kredit borcalanın bazarda ala biləcəyindən daha sərfəli şərtlərlə verilən kreditdir. Güzəştli şərtlər aşağıdakılardan biri və ya bir neçəsi ola bilər:

a. aşağı faiz dərəcəsi;

b. təxirə salınmış ödənişlər;

c. gəlirlə bağlı şərti ödənişlər.

Buna baxmayaraq, güzəştli kreditlər vaxtında ödənilməlidir və borc verən təşkilat borcun kredit şərtlərinə uyğun qaytarılmasını gözləyir.

**Qrafik 1: Azərbaycanda ÜDM-in artım templərinin dinamikası**




**Mənbə:** Dünya Bankı, https://data.worldbank.org/ (2020)

Qrafik 1-dən göründüyü kimi hesabat dövrü üçün Azərbaycanda ÜDM-nin artım tempini iki dövrə bölmək olar:

1) 1992-1996-cı illər dövlətin real ÜDM nisbətinin azalması ilə xarakterizə olunur;

2) 1996-2020-ci illər Azərbaycanın iqtisadi fəallığının bu göstəricisinin – ÜDM nisbətinin mütərəqqi artımı ilə səciyyələnir.

Nəticə etibarı ilə müşahidə etmək olar ki, 1995-1996-cı illərin əvvəlində Beynəlxalq Valyuta Fondunun ayırdığı vəsait dövlətə iqtisadiyyatın problemli sektorlarını qismən modernləşdirməyə və transformasiya etməyə imkan verdi və

Dağlıq Qarabağda hərbi münaqişəyə baxmayaraq, iqtisadi artım tempini artırdı. ÜDM-in bu cür artımı postsovet məkanında ən qabaqcıl göstəricidir.

İqtisad elmləri üzrə fəlsəfə doktoru E.Rüstəmov inkişafın dörd əsas mərhələsini müəyyən edir (Rüstəmov, 2010). E.Rüstəmovun məqaləsində təqdim olunan məlumatları əsas götürərək deyə bilərik ki, 2011-ci ilə qədər Azərbaycan iqtisadiyyatı artıq dörd inkişaf mərhələsini keçib: transformasiya tənəzzülü (1992-1995), sabitləşmə və bərpa (1996-cı illər). 2000), investisiya artımı (2001-2004) və iqtisadi partlayış (2005-2008).

Statistik məlumatlar bizə bunu deməyə imkan verir ki, 2008-ci ildə Dünyada baş verən maliyyə böhranından sonra ÜDM-də azalma müşahidə olunsa da, 2011-2020-ci illərdə həyata keçirilən layihələr, Strateji yol xəritələri onu sabit tempdə saxlamağa imkan verir.

**Diaqram 1: Azərbaycan iqtisadiyyat sahələrində beynəlxalq kreditorlar tərəfindən ayrılmış vəsaitlərin bölgüsü**




**Mənbə:** Mərkəzi Bank, İllik hesabat, https://www.cbar.az/, (2013)

Diaqram 1-dən göründüyü kimi ayrılan vəsaitin böyük hissəsi - təxminən 25%-i elektroenergetika sektoruna, daha doğrusu, dövlətin elektrik təminatı ilə bağlı proqramların maliyyələşdirilməsinə yönəldilib. Azərbaycanın ərazisi kiçik olsa da, kifayət qədər dəyişkən relyefə malikdir, buna görə də ölkənin ucqar dağlıq rayonlarının elektriklə təmin olunması uzun müddət mümkün olmamışdır. Bunun

nəticəsidir ki, yeni minillikdə ölkənin yaşayış məntəqələrinin 98 faizindən çoxu elektriklə təmin olunub.

Həmçinin Azərbaycanın nəqliyyat infrastrukturuna əhəmiyyətli vəsait ayrılıb - kredit vəsaitlərinin ümumi həcminin təxminən 13%-dir. Nəqliyyatın inkişafına ayrılmış vəsait ölkənin yol xəritəsində əhəmiyyətli dəyişikliklər etməyə imkan verib. Nəticədə yeni yollar istifadəyə verilmiş, köhnə yollar təmir edilmişdir. Və bu proqramların icrası çərçivəsində əldə edilmiş xarici təcrübə ixrac fəaliyyətindən gəlir əldə etmək çərçivəsində ölkənin nəqliyyat sisteminin təkmilləşdirilməsi proqramının vacibliyini daha da artırır.

Kənd təsərrüfatının inkişafına ayrılmış vəsait 9% ilə üçüncü yerdədir. Sovet dövründə bu sənaye praktiki olaraq ölkədə yox səviyyəsində idi. Yalnız SSRİ dağıldıqdan sonra, 1990-cı illərin ikinci yarısından inkişaf etdi. Torpaqların meliorasiyası və su ehtiyatlarının yaxşılaşdırılması ilə bağlı xarici proqramlar dövlətə bu məsələdə ciddi irəliləyişlər əldə etməyə imkan verdi və bu gün Azərbaycan mövcud kənd təsərrüfatı resursları çərçivəsində regionda qonşuları qarşısında mühüm üstünlüyə malikdir.

Həmçinin ölkənin kimya sənayesində müəyyən infuziyalar (ümumi kütlənin 4%-i səviyyəsində) hazırlanmışdır. Əsas istiqamətlər neft kimyası və kimyəvi gübrələrdir. Bundan başqa sosial sahənin inkişafına ümumilikdə 10 faizdən çox vəsait ayrılıb.

Diaqramda digər sahələr başlığı altında tikinti, təhsil, ətraf mühit kimi başlıqlar yer alır. Onlar ümumi kredit məbləğinin 39%-i təşkil edir.

Günümüzdə dünya xammal bazarlarında enerji resurslarının bahalaşması çərçivəsində neftlə zəngin Azərbaycan ixrac gəlirlərinin həcmini sürətlə artırır və xarici borclardan daha az asılı vəziyyətə düşür. Bundan başqa, bu gün Azərbaycan Mərkəzi Asiya regionunda layihələrin kreditoru kimi çıxış edir və bu sahədə öz təsirini artırmaq üçün neft və qaz hasilatı ilə bağlı beynəlxalq layihələrə sərmayə qoyur.

## 1.3. Azərbaycan iqtisadiyyatında Beynəlxalq Maliyyə Təşkilatları tərəfindən reallaşdırılan layihələr

Əvvəlki bölmədə qeyd olunduğu kimi SSRİ dağıldıqdan sonra Azərbaycan müstəqilliyinin ilk illərindən beynəlxalq təşkilatlar ilə iqtisadi əlaqələr qurmuşdur. Bunlardan DB və BVF xüsusi əhəmiyyətə malikdir. Bununla bərabər yuxarıda adları sadalanan beynəlxalq maliyyə təşkilatları ilə də artıq 28 ildir ki layihələr həyata keçirilir. Bu layihələr, onlara ayrılan vəsait və layihələrin iqtisadi əhəmiyyəti ilə tanış olaq.

**Cədvəl 2: Azərbaycanın Beynəlxalq Maliyyə Təşkilatlarından aldığı kreditlər**

| Təşkilatın adı | Əhatə etdiyi dövr | Kreditin məbləği (mln dollar) |
|---|---|---|
| Dünya Bankı | 1992-2021 | 4400 |
| Avropa Yenidənqurma və İnkişad Bankı | 1992-2021 | 3172 |
| İslam İnkişaf Bankı | 1992-2021 | 1200 |
| Asiya İnkişaf Bankı | 1999-2019 | 5000 |
| **Cəmi** | | 13772 |

**Mənbə:** Təşkilatların illik hesabatları əsasında müəllif tərəfindən hesablanıb

Cədvəl 2-dən görə bilərik ki, Azərbaycanın əməkdaşlıq etdiyi əsas maliyyə təşkilatları Dünya Bankı və ya digər adı ilə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, İslam İnkişaf Bankı və Asiya İnkişaf Bankıdır. Qeyd etmək lazımdır ki, digər banklar ilə əməkdaşlığa son illərdə başlandığı üçün kreditin məbləği siyahıda göstərilən banklara nəzərən olduqca aşağıdır.

***Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı tərəfindən həyata keçirilən layihələr.*** İlk öncə son zamanlarda diqqət çəkən layihələrdən biri ilə başlayaq. Bu **"Azərbaycanda Dəmiryol ticarəti və nəqliyyatının dəstəklənməsi"** layihəsidir. Layihə həyata keçirən maliyyə təşkilatı Beynəlxalq Yenidənqurma və İnkişaf Bankıdır. Layihənin əsas məqsədi Azərbaycanda dəmir yolu xidmətlərini, o cümlədən Azərbaycan Dəmir Yollarının (ADY) rəqabət qabiliyyətini, maliyyə dayanıqlığını, əməliyyat və xərclərin səmərəliliyini və xüsusilə Gürcüstana doğru nəqliyyat dəhlizi (şərq-qərb dəhlizi) boyunca tutumunu yaxşılaşdırmaqdır.

Layihənin reallaşdırılması üçün ilkin olaraq 450 milyon dollar nəzərdə tutulsa da ümumi layihə xərci 795 milyon dollar olmuşdur.

İkinci strateji əhəmiyyətli layihə **"Trans-Anadolu qaz boru kəməri"** (TANAP) layihəsidir. Layihənin əsas məqsədi Azərbaycanın qaz ixrac bazarlarını şaxələndirmək və Türkiyə və Cənub-Şərqi Avropanın enerji təchizatının təhlükəsizliyini artırmaqdır. Bu layihə üç komponentdən ibarətdir. Birinci komponent TANAP Boru Kəməri Sistemi üçün infrastruktur investisiyalarını maliyyələşdirməkdir. İkinci komponent torpağın alınması üçün ilə bağlı xərclərdir. Üçüncü komponent isə tədqiqatlar, layihələndirmə, mühəndislik, satınalma, tikintinin idarə edilməsi, nəzarət və monitorinq üzrə məsləhət xidmətlərini maliyyələşdirir. Layihənin ümumi xərcləri 8 milyard 600 milyon dollar təşkil edir. TANAP layihəsinə investisiya edən beynəlxalq təşkilatlar Avropa Yenidənqurma və İnkişaf Bankı, Avropa İnvestisiya Bankı, Beynəlxalq Yenidən Yenidənqurma və İnkişaf Bankı, Asiya İnfrastruktur İnvestisiya Bankı və başqalarıdır. Layihə 2021-ci ildə başa çatmış və aşağıdakı nəticələri olmuşdur:

1. Azərbaycanın qaz ixrac bazarlarının diversifikasiyası;
2. Türkiyənin enerji təchizatının təhlükəsizliyinin artırılması;
3. Avropanın enerji təchizatı təhlükəsizliyinin təkmilləşdirilməsi.

Növbəti önəmli layihələrdən biri "Milli Su Təchizatı və Kanalizasiya Xidmətləri" layihəsidir. Layihənin məqsədi Azərbaycanın seçilmiş regional (rayon) mərkəzlərini keyfiyyətli və etibarlı su təchizatı və kanalizasiya xidmətlərini təmin etməkdir. Layihə üçün ayrılmış ümumi büdcə 287 milyon dollar təşkil edir. Layihəni Azərbaycanda həyata keçirən qurumlar "Azərsu" ASC və "Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi", maliyyələşdirən təşkilat isə Beynəlxalq Yenidənqurma və İnkişaf Bankıdır.

Qeyri-neft sənayesinin inkişafı istiqamətində həyata keçirilmiş növbəti əhəmiyyətli layihə "Kənd Təsərrüfatında Rəqabətliliyin Artırılması" layihəsidir. Layihənin həyata keçirilməsi üçün ayrılmış büdcənin ümumi dəyəri 53.25 milyon ABŞ dollardır, bunun da 34.5 milyon dolları Dünya Bankının payına düşür. 2013-

cü ildə fəaliyyətə başlayan layihənin bitiş tarixi 2021-ci ilin dekabr ayı nəzərdə tutulub. Layihə aşağıdakı məqsədləri qarşısına qoyub:

1. Kəndli təsərrüfatında sanitariya xidmətlərinin səviyyəsinin artırılması;
2. İstehsalçılara maliyyə xidmətlərinin göstərilməsi;
3. Qida sənayesinin inkişafına töhfə verilməsi.

"Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" layihəsi haqqında sərəncam ilk dəfə 2004-cü ildə verilmişdir.

***İslam İnkişaf Bankı tərəfindən həyata keçirilən layihələr.*** İlk olaraq "Bakı bərk məişət tullantılarının yandırılması zavodunun tikintisi layihəsi"ni qeyd etmək lazımdır. Zavodun tikintisinə 2009-cu ildə başlanmış, 2012-ci ildə yekunlaşmışdır. Layihə üçün ayrılamış ümumi büdcə 365 milyon dollar təşkil edir. Bunun bir hissəsi İslam İnkişaf Bankının, digər hissəsi isə Azərbaycan Respublikasının dövlət büdcəsinin payına düşür.Zavodun tikintisində əsas məqsəd Bakı və ətraf ərazilərdə ekoloji vəziyyətin bərpa edilməsidir. Yeni texnologiyaların tətbiqi sayəsində məişət tullantılarının ekologiyanı korlamasının qarşısı əhəmiyyətli ölçüdə alınır.

Azərbaycan Respublikasının hökuməti və İslam İnkişaf Bankının əməkdaşlıq etdiyi növbəti layihə 2005-ci ildə imzalanmış "Yevlax-Gəncə avtomobil yolunun yenidən qurulması" layihəsidir. Layihənin tikintisinə İslam İnkişaf Bankı tərəfindən 10.4 milyon dollar həcmində kredit ayrılıb. Kreditin müddəti 25 ildir. Layihənin məqsədi avtomobil yolu və körpülərin yenidən qurulması və Gəncə şəhəri istiqamətində 1-ci dərəcəli giriş yolunun bərpasının təmin olunmasıdır.

Strateji əhəmiyyətə malik digər layihələrdən biri **"Mingəçevir SES-in yenidənqurulması"** layihəsidir. 2007-ci ildə İslam İnkişaf Bankı tərəfindən maliyyələşdirilən layihəyə Bank tərəfindən 80 milyon dollar vəsait ayrılmışdır. Ayrılmış kreditin müddəti 15 ildir.

***Asiya İnkişaf Bankı tərəfindən həyata keçirilən layihələr.*** "Qaradağ sementinin genişləndirilməsi və müasirləşdirilməsi" layihəsi qeyri- neft sektorunun inkişafı üçün nəzərdə tutulmuş strateji əhəmiyyətli layihələrdən biridir. 2010-cu ildə fəaliyyətə başlamış layihəyə 20 milyon dollar ayrılmışdır. Layihə, əsasən nəqliyyat,

kommersiya inkişafı və şəhərsalma sahələrində iri yerli podratçılara mühüm sement məhsulları tədarük etməklə, nəqliyyat və şəhərsalma sektorlarının gücləndirilməsini dəstəkləyir. Bu layihə, AİB-in Azərbaycanda ilk qeyri-suveren (özəl) infrastruktur maliyyələşdirməsidir.

AİB 2012-ci ildə "Azərbaycan yol şəbəkəsinin ikinci inkişaf proqramı" layihəsinə 500 milyon dollar yatırım etmişdir. Bu vəsait Masallı – Şorsulu yolunun tikintisində istifadə olunmuşdur. Layihənin əsas məqsədi cənub magistral yolunun təhlükəsizliyinin təmin edilməsi və həm daxili, həm də beynəlxalq ticarətin artırılmasına dəstək verilməsidir.

Asiya İnkişaf Bankının əsas məqsədlərindən biri və ən önəmlisi regionda yoxsulluğun azaldılmasıdır. Belə layihələrdən biri 2002-ci ildə Mingəçevir şəhərində köçkünlərin inteqrasiyasına istiqamətlənmişdir. Pilot layihə çərçivəsində Yaponiyanın Yoxsulluğun Azaldılması fondundan 2.5 milyon qrant vəsait təsdiq olunmuşdur.

2004-ci ildə Azərbaycan Respublikası hökuməti ilə Asiya İnkişaf Bankı arasında "Selə Qarşı Tədbirlər" layihəsi imzalandı. Layihənin həyata keçirilməsinə 15 milyon dollar vəsait ayrılmışdır. Layihə çərçivəsində 5 şəhər və 43 kənd su basmalardan müdafiə olunmuş, o cümlədən 200000-dən çox əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması təmin olunmuşdur.

Digər layihə **780 meqavat gücündə "Cənub" buxar-qaz elektrik stansiyası** layihəsidir. Layihənin tikintisinə 2007-ci ildə başlanmışdır. Layihənin tikintisinə Asiya İnkişaf Bankı tərəfindən 232 milyon dollar ayrılmışdır. İlk olaraq tikintinin istifadəyə verilməsi 2012-ci ildə nəzərdə tutulsa da, elektrik stansiyası bir il sonra 2013-cü ildə fəaliyyətə başlamışdır.

***Avropa İnvestisiya Bankı tərəfindən həyata keçirilən layihələr.*** AİB Azərbaycanla 2014-cü ildən fəaliyyət göstərir. Bank Avropa Qonşuluq Siyasəti (AQS), Şərq Tərəfdaşlığı (ŞT) və Aİ-nin digər ikitərəfli sazişləri çərçivəsində fəaliyyət göstərir. AİB ölkəyə 96 milyon avrodan çox sərmayə qoymuşdur. AİB kreditinə Azərbaycanın KOM-lar üçün aparıcı maliyyə təminatçısı olan AccessBank

vasitəçilik edilir. AccessBank-la əməkdaşlıq vasitəsilə AİB 120-dən çox müəssisəyə 25 milyon avro dəyərində maliyyə vəsaiti ayırmışdır.

AİB-nin dəstəyi ilə Azərbaycan öz iqtisadiyyatını şaxələndirməyi hədəfləyir. Bu proses çox güman ki, bərpa olunan enerji səmərəliliyinə investisiyaları əhatə edəcək. Bankın Azərbaycandakı prioritetləri xüsusilə kənd sahələri üçün balanslaşdırılmış və davamlı iqtisadi inkişafın təşviqi, bərabərsizliklərin azaldılması və milli enerji mənbələrinin şaxələndirilməsidir.

***Avropa Yenidənqurma və İnkişaf Bankı tərəfindən həyata keçirilən layihələr.*** Avropa Yenidənqurma və İnkişaf Bankı 2021-ci **ildə "Gemza Group" MMC** ilə əməkdaşlıq etmişdir. "Gemza Group" MMC son on illikdə mühəndislik, satınalma və tikinti şirkəti kimi yaradılmışdır. Şirkət Xəzər və MDB regionlarında iri Neft və Qaz şirkətləri ilə satınalma və xidmət müqavilələri bağlayır. Layihənin məqsədi əsaslı məsrəflər və dövriyyə kapitalı ehtiyacları üçün istifadə ediləcək gəlirlə Gemza Group MMC-yə 8,0 milyon avroya qədər yüksək səviyyəli təminatlı kreditin verilməsidir. Ayrılmış kredit şirkətə boru kəməri layihələrini həyata keçirməyə imkan verəcək.

Azərbaycan 2019-cu ildə AYİB Fonduna 2 milyon ABŞ dolları və Şərqi Avropa Enerji Səmərəliliyi və Ətraf Mühit tərəfdaşlığı çərçivəsində 2 milyon ABŞ dolları məbləğində töhfə vermiş və AYİB-in donorlar cəmiyyətinə qoşulub. Bu maliyyələşdirmə məsləhət xarakterli layihələrə, bərk məişət tullantılarının idarə olunması da daxil olmaqla nəqliyyat və bələdiyyə infrastrukturuna investisiyaların həyata keçirilməsinə və digər siyasət islahatlarına dəstək verəcək.

***Qara Dəniz Ticarət və İnkişaf Bankı tərəfindən həyata keçirilən layihələr.*** **"Şahdəniz Mərhələ 2"** layihəsi 2015-ci ildə QDTİB tərəfindən layihələşdirilmişdir. Layihənin həyata keçirilməsi üçün 60 milyon dollar vəsait ayrılmışdır. Şahdəniz dəniz qaz-kondensat yatağı Cənubi Xəzər dənizində yerləşir. Bu, Azərbaycanın ən böyük təbii qaz yatağıdır və dünyanın ən böyük qaz yataqlarından biridir. O, hasilatına 2006-cı ildə başlayıb (Şahdəniz Mərhələ 1). Təklif olunan investisiya Şahdəniz Mərhələ 1 çərçivəsində hazırda mövcud olan təqribən 10,0 milyard

kubmetr qaz hasilatına ildə əlavə 16,0 milyard kubmetr qaz hasilatı əlavə edəcək Şahdəniz yatağının davamlı işlənməsidir.

Digər bir layihə 2019-cu ildə Azərbaycan Respublikası Dövlət Neft şirkəti (ARDNŞ) ilə həyata keçirilmişdir. Layihə Rusiya ilə Türkiyə arasında ticarəti artırmaqla Orta Müddətli Strateji Biznes Planları 2019-2022-də qeyd olunan regional əməkdaşlıq mandatını və Türkiyədə yeni tikilmiş neft emalı zavodu üçün vəsait təmin etməklə strategiyanın dolaylı inkişaf mandatını qarşılamaq potensialına malikdir. Əlavə olaraq, əməliyyatın Azərbaycan üçün dolaylı inkişaf faydaları ola bilər, çünki fondun benefisiarı İsveçrədə olsa da, Azərbaycanın dövlət şirkətidir. Azərbaycan Dövlət Neft Şirkətinə vəsaitin verilməsi QDTİB-ə üzv ölkədən şirkətə bu sahədə qlobal iştirakçılarla rəqabət qabiliyyətini artırmaq üçün dəstək ola bilər.

# II FƏSİL. İŞĞALDAN AZAD OLUNMUŞ REGİONLARIN MÜASİR VƏZİYYƏTİNİN TƏHLİLİ

## 2.1. İşğaldan azad olunmuş ərazilərin iqtisadi potensialının müasir vəziyyətinin təhlili

Azərbaycan Respublikasının ərazisinin 20%-nin 28 il işğal altında olması, Qarabağ ərazisi və Zəngilan, Qubadlı, Kəlbəcər, Laçın, Fizuli, Ağdam və Cəbrayıl daxil olmaqla 7 rayonun bu illər ərzində talan olunması 1992-2020-ci illərdə bu ərazinin iqtisadi potensialından istifadə edilməsinin qarşısını almışdır. 2020-ci ildə işğal altındakı torpaqların azad edilməsi bu ərazilərin iqtisadi potensialının müasir vəziyyətinin təhlilini zəruri edir. Qarabağ regionu Yuxarı Qarabağ və Kəlbəcər-Laçın iqtisadi rayonu olmaqla 2 yerə ayrılırdı. Yuxarı Qarabağ iqtisadi rayonuna Ağdam, Tərtər, Xocavənd, Xocalı, Şuşa, Cəbrayıl rayonları və Xankəndi şəhəri daxildir. Rayonun sahəsi respublika ərazisinin 9%-ni təşkil edir. Kəlbəcər-Laçın iqtisadi rayonuna Kəlbəcər, Laçın, Qubadlı və Zəngilan rayonları daxildir. Kəlbəcər-Laçın iqtisadi rayonu respublika ərazisinin 7%-ni təşkil edir. Yəni hər iki rayon bir yerdə 16%-lik hissəni əhatə edir. Bu rəqəm ərazinin iqtisadi potensialını tədqiq etməkdə kifayət qədər əhəmiyyətə malikdir. (https://www.azerbaijans.com/content_434_az.html)

İşğaldan azad edilmiş rayonlarımızın tarixi-mədəni dəyəri, təkcə əsrarəngiz təbiəti ilə deyil, həm də yeraltı və yerüstü sərvətlərə, böyük iqtisadi potensiala malik olması və çoxşaxəli turizm imkanlarına görə xüsusi əhəmiyyətə malikdir. Bu rayonlar kənd təsərrüfatı sahəsində üstünlüyü, xammal ehtiyatları və istehsal sənayesi baxımından əlverişli təbiətə malikdir. Bu rayonların iqtisadi potensialının əsas göstəricilərinə nəzər salsaq aydın olur ki, Ermənistanın torpaqlarımızda törətdiyi talançılıq nəticəsində regionun sosial və iqtisadi infrastrukturu məhv edilib. Torpaqlarımızın işğalı nəticəsində minlərlə kvadrat kilometr münbit torpaq sahəsi müxtəlif növ kimyəvi tullantılara məruz qalmış, iqtisadiyyata və daha da vacib olan dünya genofonduna milyonlarla dollar ziyan dəymişdir.

İşğaldan azad olunmuş rayonlara dəymiş ziyan 4 istiqamətə ayrılmışdır:

1. **Sosial-psixoloji və iqtisadi vəziyyətə dəymiş ziyan.** 1988-1994-cü illəri əhatə edən 1-ci Qarabağ müharibəsi dövründə Ermənistan Respublikası ərazisindən 250 mindən çox, işğal olunmuş rayonlardan isə 1 milyondan çox insan qaçqın və məcburi köçkün statusu almışdır. Bunun nəticəsində ölkənin demoqrafik artım tempində geriləmə müşahidə olunmuşdur. Statistik məlumatlar göstərir ki, əhalinin illik artım surəti 1988-1998-ci illərdə azalan tempə malik olmuşdur. Həmçinin, 1 milyondan çox insanın yaşadığı və işlədiyi yeri itirməsi nəticəsində ölkədə işsizlik səviyyəsində artım müşahidə olunmuşdur. Dünya Bankından əldə olunmuş statistik məlumatlara əsasən demək olar ki, 1991-2000-ci illərdə işsizlik səviyyəsi artan templə davam etmiş, ən yüksək həddi 2000-ci ildə 11,78% olmuşdur.
2. **Sənaye, yaşayış və sosial obyektlərə dəymiş ziyan.** İşğal olunmuş ərazilərin iqtisadi cəhətdən inkişaf etmiş rayonlar olmağı burada sənaye sahələrinin inkişafına təkan vermişdir. Xüsusilə yüngül və yeyinti sənayesi, eyni zamanda, tikinti malları sənayesi seçilən sahələrdən idi. Sənayenin müxtəlif sahələrinin inkişafı burada kommunikasiya xətlərinin və obyektlərinin geniş şəkildə yayılmasına şərait yaratmışdır. Bunun nəticəsidir ki, işğal dövründə ən çox ziyan çəkmiş sahələrdən biri məhz sənaye sahələri və sosial obyektlərdir. Bu obyektlərə misal olaraq avtomobil və torpaq yolları, 160 ədəd körpü, elektrik xətləri, 2500 ədəd transformator, 2300 km su kəməri xətləri, 2 min km qaz kəməri, kanalizasiya xətləri, 160 ədəd su tutarı, 34 ədəddən çox qaz paylayıcı qurğuları, 35 min nömrəlik telefon stansiyalarını göstərmək olar. Eyni zamanda 4 aeroport, Bakı-Ağdam və Horadiz-Ordubad dəmiryolu xətləri, Bakı-Stepanakert-Naxçıvan qaz kəməri və s. dağıdılmışdır. (https://azerbaijan.az/information/907)
3. **Kənd təsərrüfatına dəymiş ziyan.** Artıq məlumdur ki, işğal olunmuş rayonların coğrafi mövqeyi burada kənd təsərrüfatı sahələrinin inkişafı üçün əlverişlidir. İşğaldan əvvəlki dövrdə burada kartofçuluq, taxılçılıq, tütünçülük, üzümçülük və xırda və iri-buynuzlu heyvandarlıq kənd təsərrüfatının seçilən sahələrindən idi. İqtisadiyyat naziri Mikayıl Cabbarovun müavini Niyazi Səfərovun APA qrupa verdiyi müsahibəyə istinadən “işğaldan azad olunmuş torpaqlara dəymiş ziyan,

işğal altında olan torpaqlarda 7 rayon mərkəzi, 6 şəhər, 12 qəsəbə, 830 kənd, 700 xəstəxana və tibb müəssisəsi, 6 dövlət teatrı, 368 klub, 85 musiqi məktəbi, 600 sənaye və kənd təsərrüfatı müəssisələri dağıdılıb, talan olunub, 1 milyon hektardan çox kənd təsərrüfatı sahəsi, o cümlədən, təxminən, 128 min suvarılan torpaq, 35 min hektara yaxın üzüm və meyvə bağları məhv edilərək dövriyyədən çıxarılıb. İşğala qədər ölkə üzrə ÜDM istehsalının 24%-i, üzüm istehsalının 41%-i, kartof istehsalının 46%-i, ət istehsalının 18%-i, süd istehsalının 34%-i həmin rayonların payına düşüb. İşğal ölkənin su ehtiyatlarına ciddi ziyan vurub. Ümumi meşə sahələrinin 25%-i, yəni 280 min hektarı işğal olunan torpaqların payına düşürdü. Düşmən təbii sərvətlərimizin qanunsuz istismarı yolu ilə Kəlbəcərdə külli miqdarda qızıl hasil edib." (https://apa.az/az/infrastruktur/Nazir-muavini-Isgaldan-azad-olunan-razilrin-inkisafi-coxsayli-sektorlari-hat-edck-615722)

4. **Mədəniyyət abidələrinə dəymiş ziyan.** Torpaqlarımız işğaldan azad olunduqdan sonra ərazidə aparılmış tədqiqat işləri göstərir ki, talan olunmuş abidələr arasında dünyaca tanınan, ilk insan məskənlərindən hesab olunan Azıx və Tağlar mağaraları, həmçinin, ətrafdakı bir neçə məşhur kurqan hərbi məqsədlər üçün istifadə olunmuşdur. Mağara və kurqanlardan başqa məscid və digər tarixi abidələrə də xeyli ziyan vurulmuşdur. Belə ki, tamamilə dağıdılmış məscidlərin sayı 63, yararsız hala salınmış məscidlərin sayı 4-dür. 900-dən çox abidə dağıdılmış və zərər görmüş tarixi abidə kimi rəsmi şəkildə qeydiyyata alınıb. Onlardan 609-u yerli əhəmiyyətli, 285-i regional əhəmiyyətli, 13-ü beynəlxalq əhəmiyyətlidir.

Hazırda işğal nəticəsində Azərbaycan iqtisadiyyatına dəymiş ziyan üzrə hesablamalar aparılır. Əldə olunmuş hesablama məlumatlarına görə, rayonlarımıza dəymiş təkcə maddi ziyanın təxmin edilən ümumi məbləği 1 trilyon dollarla ölçülür.

Yuxarıda qeyd olunan statistik məlumatlar həyata keçiriləcək işlərin ölçüsü haqqında müəyyən bir təsəvvür yaranmağına imkan verir. Buna görə də, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonun inkişaf etdirilməsi bir çox sektorı əhatə edəcək hərtərəfli yanaşmaya ehtiyac yaradır. Bu layihələri həyata keçirərkən, burada, hər şeydən əvvəl, ən çox diqqət təhlükəsizlik və idarəetmə məsələlərinə ayrılmalıdır.

Təhlükəsizlik məsələlərinə diqqətin ayrılması dedikdə, ilk növbədə ərazilərin minalardan təmizlənməsi, eyni zamanda, insan həyatı üçün təhlükəli sayılan digər bioloji və ekoloji pozuntuların yox edilməsinin vacibliyi ön plana çəkilir. Təhlükəsizlik məsələlərinə cavabdeh olan qurumlar Dövlət Sərhəd Xidməti (DSX) və Daxili İşlər Nazirliyidir (DİN). İnzibati idarəetmə məsələləri isə dövlətin digər qurumlarının səlahiyyətindədir.

Günümüzdə işğaldan azad olunan rayonlarda bir-birindən fərqli xidmət sahələrinin yenidən qurulması prosesi son sürətlə davam edir. Bununla əlaqədar bir çox layihələr təşkil olunur. Azərişıq ASC-nin həyata keçirtdiyi "Azərişıq Qarabağda" layihəsi bunlardan biridir. Bu layihəylə bağlı təxirəsalınmaz işlərin həyata keçirilməsi üçün bu ərazilərdə böyük əhəmiyyətə malik olan həyati əhəmiyyətə malik olan obyektlərin enerji ilə təchizatı işləri hələ də yüksək səviyyədə davam edir. Bununla belə artıq Cəbrayıl rayonunda və Hadrutda bələdiyyə binalarının işıq ilə təmin olunmasına başlanılıb. Bu binalara elektrik enerjisinin paylanması Horadiz ərazisisndə yerləşən yarımstansiyada bu yaxınlarda istifadəyə verilmiş elektrik xəttinin köməkliyi ilə həyata keçirilir.

Digər bir layihə "Azercell Telekom" MMC tərəfindən həyata keçirilmişdir. Operator layihə çərçivəsində işğaldan azad olunmuş rayonlarda ilk olaraq mobil infrastruktur formalaşdırdı. Bundan əlavə olaraq 4-cü nəsil yeni LTE radio baza qurğuları üçün stansiyalar fəaliyyət göstərir. "Nar" və "Bakcell" kimi mobil operatorlar da mobil infrastrukturun formalaşdırılması istiqamətində şirkətdaxili layihələndirmələrini yekunlaşdıraraq fəaliyyət planlarını həyata keçirməkdədirlər.

Milli Məclisin deputatı, iqtisadçı ekspert Vüqar Bayramova görə, işğaldan azad olunmuş rayonlarımızdan Laçın və Kəlbəcərdə bərpa işlərinin tamamlanması prosesindən sonra bu rayonların iqtisadi potensialı, eyni zamanda, ümumi daxili məhsuldakı (ÜDM) payı deməyə imkan verir ki, onların Azərbaycan iqtisadiyyatındakı əhəmiyyəti növbəti illərdə daha da artacaqdır.

İşğaldan azad edilmiş rayonların iqtisadi potensialı müxtəlif spektrlidir. Bura kənd təsərrüfatı, sənaye və turizmin müxtəlif sahələrini aid etmək olar. Bu sahələr aşağıdakı kimidir:

- Üzümçülük;
- Tütünçülük;
- Pambıqçılıq;
- Baramaçılıq;
- Meyvə-tərəvəz;
- Bostançılıq;
- Heyvandarlıq.

Burada dənli bitkilərdən qarğıdalı, paxla, soya, noxud və üzümün müxtəlif növlərinin əkili becərilməsi üçün münbit şərait var. Qeyd etmək lazımdır ki, Füzuli, Ağdam kimi nisbətən dağətəyi zonada yerləşən rayonlar 1990-cı illərdən əvvəlki vaxtlarda pambıq və taxıl məhsullarından əlda olunan məhsula görə ölkənin qabaqcıl rayonları hesab olunurdular. Bir qədər yuxarı getdikdə görürük ki, Cəbrayıl, Qubadlı, Zəngilan rayonları üzümçülük təsərrüfatında digər rayonlardan fərqlənən bir məhsuldarlığa malik idi və nəhayət dağlıq ərazilərin üstünlük təşkil etdiyi Laçın və Kəlbəcər kimi rayonlarımızda heyvandarlıq digər rayonlara nisbətdə daha çox inkişaf etmişdi. Buradan aydın olaraq görünür ki, işğaldan azad edilən ərazilərimizin çox zəngin təbii quruluşu və kənd təsərrüfatı sahələrinin inkişafına olan potensialı regionda iqtisadiyyatın daha tez inkişaf etməsinə zəmin yarada bilər.

Bunu da qeyd etmək lazımdır ki, 1990-cı illərə qədər Qarabağ bölgəsində beynəlxalq qurumların ekspertlərinin və dünyada tanınmış mütəxəssislərin iştirakı ilə çoxsaylı işgüzar səfərlər həyata keçirilmişdir. Mütəxəssislərin tədqiqatlarından əldə olunmuş nəticələrə görə, bu münbit torpaqların müxtəlif struktura sahib olması və təbii ehtiyatlarının zənginliyi bütün Cənubi Qafqaz bölgəsində fərqliliyi ilə seçilir. Qarabağ regionu xalq təbabətində geniş yayılmış bir çox aromatik, dərman, bəzək və digər ənənəvi olmayan bitkilərin də məskənidir.

Qarabağ və Şərqi Zəngəzur iqtisadı rayonları kənd təsərrüfatı ilə yanaşı həm də böyük xammal ehtiyatına sahibdir.

Həmin rayonlarımızda olan xammal bazası aşağıdakı cədvəldə əksini tapmışdır:

**Cədvəl 3: İşğaldan azad olunmuş rayonlarda faydalı qazıntı ehtiyatları**

| Rayonun adı | Xammal |
|---|---|
| Zəngilan | tikinti daşı, qızıl yatağı, qara mərmər yatağı, əhəng |
| Cəbrayıl | Mişar daşı, gil, qum, sement, gəc, tikinti daşı |
| Kəlbəcər | Qızıl, civə, mişar daşı, gil, perlit |
| Laçın | Civə, mişar daşı, pemza, vermukulit, vulkan külü |
| Qubadlı | Mişar daşı, gil, tikinti daşı, üzlük daşı, əlvan daşı |
| Füzuli | Mişar daşı, gil, qum-çınqıl |
| Ağdam | üzlük daşı, sement xammalı, gil, qum-çınqıl |
| Şuşa | Üzlük daşı, gil, tikinti daşı |
| Xocalı | Gil, üzlük daşı, qum-çınqıl |

**Mənbə:** Müəllif tərəfindən hazırlanmışdır.

İşğaldan azad olunmuş rayonlardakı təbii ehtiyatların dövriyyəsini təşkil etməklə Azərbaycan bu iqtisadi rayonların inkişafı, dağ-mədən və metallurgiya sənayesinin inkişafını nail olmaq potensialına sahibdir. Metallurgiya sənayesinin inkişafı isə Azərbaycanda digər sənaye sahələri ilə yanaşı, hərbi sənaye sahəsinin inkişafını sürətlənməsinə səbəb ola bilər.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin şərhində qeyd olunur ki, ilk dövrlər üçün faydalı qazıntıların yaxın illərdəki istifadəsi üç əsas istiqamət üzrə təmin oluna bilər: əlvan metallar, tikinti materialları və nadir metallar. Bunlardan əlvan metallar və tikinti materialları klassik iqtisadiyyatın səciyyəvi sahələridir və mövcud təbii ehtiyatlar bu istiqamətlərdə yeniliklərin meydana çıxmasına imkan verəcəkdir. Nadir metalların öyrənilməsi yüksək texnologiyaların geniş istifadəsini tələb edir. Buna görə də onların regionda mövcudluğu ilə bağlı yeni araşdırmalar və geoloji işlər üçün sərmayə ayrıla bilər.

## 2.2. İşğaldan Azad Olunmuş Rayonlarda İqtisadi İnkişaf Strategiyasının Əsas İstiqamətləri

Azərbaycan respublikasının ərazi bütövlüyünün bərpası dövlətimizin 30 illik müstəqillik tarixində böyük yer tutur. Azərbaycan xalqı dövlət sərhədlərini bərpa

etməklə dünya siyasi arenasında çox böyük hərbi və diplomatik qələbəyə nail oldu. 44 gün davam edən və tarixə qızıl hərflərlə düşmüş zəfərin əbədi olması üçün artıq 30 ilə yaxındır ki öz doğma ata-baba torpaqlarından məcburi şəkildə köçmüş insanların evlərinə qayıtması təmin olunmalıdır. "Böyük Qayıdış" bu insanların işğaldan azad edilmiş rayonlarda əsaslı məskunlaşmasında və bu rayonların ölkənin iqtisadi fəaliyyətinə inteqrasiya etməsinə bir vasitə olacaqdır.

Zəngilan və Füzuli rayonlarında əsası qoyulmuş yeni beynəlxalq aeroportlar və Qarabağdan Azərbaycanın müxtəlif istiqamətlərinə avtomobil və dəmir yolu layihələrinin icrası nəqliyyat-logistika dəhlizinin bərpası və inkişafı istiqamətində ölkəmizin qlobal bazarlara çıxış imkanlarını artırır. Eyni zamanda nəqliyyat dəhlizinin bərpası işğaldan azad edilmiş ərazilərin inkişafında əhəmiyyətli rol oynayacaqdır.

Birinci Qarabağ müharibəsindən əvvəlki illərdə olduğu kimi, azad edilmiş torpaqlara yenidən gələcək insanların təhlükəsiz və rahat şəraitdə yaşayışı və bu ərazinin ölkənin ən gözəl ziyarət yerlərindən birinə çevrilməsi dövlət tərəfindən təmin edilməlidir. Layiqli yaşayış müasir həyatın əsasını təşkil edir və onun bərpası üçün hərtərəfli şəkildə quruculuğa nail olmaq mütləqdir. Bu, stimulların və dövlət və özəl sektorun əməkdaşlığının inkişafı əsasında reallaşmalıdır. Ancaq belə bir mühitdə 28 il işğal altında olub azadlığına qovuşmuş ərazilərin Azərbaycan iqtisadiyyatına tam nüfus etməsini həyata keçirmək mümkündür.

Bu prioritetin uğurlu bir şəkildə təşkil olunması üçün iki məqsədə çatmaq lazımdır. Bu məqsədlər dayanıqlı məskunlaşma və iqtisadi fəaliyyətə reinteqrasiyadır.

**Dayanıqlı məskunlaşma.**

Azərbaycanın torpaq bütünlüyünün bütövlüklə təmin olunması insanların öz doğma yurdlarına dönərək məskunlaşması üçün yeni bir dövrün yaranmağına təkan vermişdir. İşğaldan azad olunmuş rayonlarımızda vətəndaşların tam olaraq evlərinə köçməyinə şərait yaradılmalıdır. Bu səbəbdən həmin rayonlar cəmiyyətimizin ən təmiz, dövrümüzün tələblərinə cavab verən və səliqəli yaşayış məskəninə

dönüşdürülməli, dayanıqlı məskunlaşma naminə indki dövrün tələblərinə uyğun sülh şəraitində yaşayış üçün şərait yaradılmalıdır (https://science.gov.az/az/news/open/16136).

Sülh şəraitində yaşamaq və işləmək üçün uyğun şəraitin təşkil olunması əhalinin daimi şəkildə məskunlaşması üçün böyük əhəmiyyətə malik olacaq. Bunun üçün yeni bərpa olunmuş ərazilərdə yüksək səviyyəli yaşayış üçün təminat verilməli, ən son texnologiyalara əsaslanan infrastruktur işləri görülməli, həyat tərzinin rahat olmağı və müasir xidmətlərin əlçatanlığı təmin olunmalıdır. Bu rayonların iqtisadi potensialından səmərəli şəkildə istifadə olunmaqla, vətəndaşların məskunlaşma səviyyəsinin Birinci Qarabağ müharibəsindən əvvəlki dövrün səviyyəsinə çatdırılmasına çalışılmalıdır (https://science.gov.az/az/news/open/16136).

**İqtisadi fəaliyyətə reinteqrasiya.**

İşğaldan azad edilmiş rayonların ölkənin iqtisadi və sosial baxımdan tarixi əhəmiyyəti yenidən əvvəlki vəziyyətinə qayıtmalıdır. Yeni zona iqtisadi fəaliyyətin əsas açarlarından biri kimi fəaliyyət göstərməli və ölkənin digər rayonlarında olan inkişaf səviyyəsinə gəlib çatmalıdır. Regionun dayanıqlı olaraq irəliləməsi burada iqtisadi tələbatların doğru xammala yönəldilməsindən asılı olacaq, təbii ehtiyatların zənginliyi və uzun illər ərzində qazanılan tarixi imic bu rayonlara investisiya cəlbinə şərait yaradacaqdır (https://president.az/az/articles/view/50474).

Sarsılmaz təməllər üzərində inşa edilən məskunlaşmanı yenidən əvvəlki vəziyyətinə gətirməklə rayonların bütün ölkə üzrə iqtisadi fəaliyyətdəki mövqeyini işğaldan əvvəlki sosial və iqtisadi gücünə çatdıra və onu davamlı olaraq inkişaf etdirə bilərik. Bu mərhələdə lazımi təkanlara əsaslanan xüsusi səylərin hərtərəfli həvəsləndirilməsi, eləcə də bununla yanaşı, dövlət və özəl sektorların əməkdaşlığının inkişaf etdirilməsi böyük əhəmiyyət kəsb edir.

İşğaldan azad olunmuş ərazilərin sənaye imkanlarını 4 istiqamətdə dəyərləndirmək olar:

- zəngin su təchizatı;
- elektrik enerjisi;
- sənaye rekreasiya imkanları;
- zəngin faydalı qazıntıların emalı.

Region, emal və ərzaq sənayesinin inkişafı üçün də olduqca güclü potensiala sahibdir.

Azərbaycan, eləcə də, işğaldan azad olunan ərazilər mineral və termal su resursların zənginliyi ilə regionun digər bölgələrindən fərqlənir. Bu su resurslarından həm gündəlik istifadədə, həm kənd təsərrüfatında, həm də elektrik enerjisinin hasilatı üçün sərf ediləcək. Azərbaycanın su resurslarından istifadəyə effektiv şəkildə nəzarəti nəticəsində düşmənə qarşı üstünlüklər əldə edilir. Belə ki, Ermənistan illərdir işğal altında olan torpaqlarda yerləşən çayları və gölləri zəhərləyərək həm təbiətə külli miqdarda ziyan vurmuş, həm də bu yerli əhalinin bu çayların suyundan istifadə etməyinə mane olmuşdur. Ancaq indiki vəziyyətdə artıq düşmən bu əməlləri törədə bilməyəcək. Şirin su ehtiyatlarından xüsusi olaraq Kəlbəcər və Laçın rayonlarında yerləşən çayları və gölləri qeyd etmək istərdim. Tərtər və Kəlbəcər rayonu ərazisində yerləşən Sərsəng su anbarı yüksəkliyinə görə Azərbaycanın ən hündür və ümumi həcmi 560 milyon kubmetr olan su anbarıdır. Bu ərazilərin işğaldan azad olunması nəticəsində ətraf rayonlar su anbarının vasitəsilə suvarma suyu ilə təmin olunacaq. Xudafərin su anbarı isə Cəbrayıl və Zəngilan ərazisində yerləşir. Su anbarının yenidən işlək vəziyyətə salınması 80 min hektara yaxın ərazinin suvarma suyu ilə təmin edilməsi deməkdir (Kaşiyeva F., 2021).

Azərbaycanın mineral su ehtiyatları bütün ölkə ərazisində geniş şəkildə yayılsa da, onun 40 faizə yaxın hissəsi işğaldan azad olunmuş torpaqlardadır. Bunlardan Kəlbəcər rayonu ərazisində yerləşən Yuxarı və Aşağı İstisu, Laçın rayonundakı Minkənd, Şuşa rayonundakı Turşsu və digər mineral su yataqları diqqəti özünə çəkir. Bu suların gələcəkdə həm satışını təmin etmək üçün, həm də bulaqların yerləşdiyi ərazidə turizm məqsədilə istirahət yerlərinin yaradılması üçün istifadə etmək mümkündür (https://report.az/multimedia/qarabagin-qizildan-qiymetli-mineral-sulari/).

İşğaldan azad edilmiş ərazilərin sənaye perspektivlərini araşdıran zaman aydın olur ki, elektrik enerjisinin əldə edilməsi üçün əsas yeri su ehtiyatlarının cəmləşdiyi sahələr təşkil edir. Burada Sərsəng və Xudafərin SES-ləri nəzərdə tutulur. 2016-cı ildə Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında Araz çayı üzərində “Xudafərin” və “Qız qalası” hidroqovşaqlarının və su

elektrik stansiyalarının tikintisinin davam etdirilməsi, istismarı, energetika və su ehtiyatlarından istifadə sahəsində əməkdaşlıq haqqında saziş imzalanmışdır (http://www.e-qanun.az/framework/33288). Razılaşmaya görə stansiyaların inşası və istismarı prosesi 2024-cü ilə qədər davam edəcək. Tikintinin tam yekunlaşıb istifadəyə verildiyi təqdirdə "Xudafərin" hidroqovşağı Azərbaycana külli miqdarda elektrik enerjisi istehsal etməyə imkan verəcək.

Araşdırmalar göstərir ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sənaye və kənd təsərrüfatı perspektivləri olduqca şaxəlidir. Ərazidə xammal bazası və təbii resurslar ilə olduqca zəngin olmağı burada yenidənqurma prosesindən qısa müddət sonra rayonların iqtisadiyyatının sürətli bir şəkildə ÜDM-dəki payının artacağını deməyə əsas verir.

Qarabağ ərazisi yerləşdiyi coğrafi mövqe baxımından fərqli növ təbii quruluşa malik abidələri, meşələri, "Qırmızı" kitaba düşmüş flora və faunası ilə çox zəngindir. İşğaldan azad edilmiş ərazilərin meşə örtüyünün sahəsinin 240000 hektar olmağı təxmin olunur. 1990-cı illərdən əvvəlki dövrlərdə təbii landşaftı, nadir bitki və heyvanlar aləmini qorumaq məqsədi ilə iqtisadi rayonun bir neçə şəhərində vaxtilə bir sıra qoruq və yasaqlıqlar salınmışdı. Bu qoruq və yasaqlıqların siyahısı aşağıdakı cədvəldə göstərilmişdir.

**Cədvəl 4: Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonunda olan qoruq yasaqlıqlar**

| **Rayon** | **Qoruq və yasaqlıq** |
|---|---|
| Zəngilan | Bəsitçay qoruğu |
| Laçın | Qaragöl qoruğu, Laçın yasaqlığı |
| Qubadlı | Qubadlı yasaqlığı, |
| Şuşa | Daşaltı yasaqlığı |

**Mənbə:** Müəllif tərəfindən hazırlanmışdır.

Zəngilan rayonu ərazisində Bəsitçay vadisində yerləşən qoruqda çay boyu kilometrlərlə uzanan şərq çinarı meşəsi var idi. Buradakı ağaclar uzunömürlü hesab olunduğu üçün "Qırmızı Kitab"a daxil edilmişdi. Belə ki, şərq çinarları 500 ilə qədər inkişaf edə bilir. Bütün bunlar onu deməyə imkan verir ki, Qarabağ bölgəsi səfalı təbiəti, bitkilər aləmi və nadir heyvan növləri, qədim tarixi abidələri ilə turizmin

inkişafı üçün geniş iqtisadi potensiala malikdir. Dünyanın ən qədim yaşayış məskənlərindən biri olan Azıx mağarası, Qarabağın dağlıq və düzənlik yerlərində aşkarlanmış qədim daş abidələr, Xocalıda və Xankəndidə yerləşən tarixləri olduqca qədim bir sıra məbədlər olduqca böyük turizm ehtiyatına malikdir.

Hazırda işğaldan azad olunmuş rayonların ərazisində 40-a yaxın otel binası var. Bu otellərdən bir çoxunun tikintisi 1992-2020-ci illər arasında xarici şirkətlərin regiona qanunsuz şəkildə kapital qoyması nəticəsində bünövrəsi qoyulmuşdur.

Qarabağda regionun təhlükəsizliyinə əminlik yarandıqdan, infrastrukturda yenidənqurma işləri tamamlandıqdan və yerli əhalinin məskunlaşmasından sonra turizm sektorunun təşkili və gələcəkdə iri həcmli layihələrin reallaşması gözlənilir. Bu niyyətlə dövlət və özəl sektorun birlikdə təşəbbüsü nəticəsində bu ərazilərin turizm potensialı lap əvvəldən işlənib hazırlanmalı, təbii və insan əməyi ilə yaradılmış turizm ehtiyatları tədqiq olunmalıdır. Qarabağ əsasən dağlıq ərazi olduğundan, dağçılıq turizmini xüsusi olaraq qeyd etmək lazımdır. Yuxarıda sadalananları əsas götürürək demək olar ki, bu ərazi bir neçə ilə dünyanın ən gözəl turizm dayanacaqlarından biri kimi turistlərin səfər etməyə can atacağı region olacaq (Hüseynov İ., Əfəndiyeva N., 2007). Qarabağda turizmin inkişafına mane olan digər məsələ erməni birlikləri tərəfindən saxtalaşdırılan abidələrdir. Bu abidələrin tarixi reallığının bərpa olunması üçün atılacaq addımlar çox mühüm əhəmiyyətə malikdir. İşğal nəticəsində tarixi abidələr ilə yanaşı muzeylər də istismar edilmişdir. Bu istiqamətdə görülən tədbirlərə əvvəlki muzeylərdə yenidənqurma işlərinin görülməsi və yeni muzeylərin yaradılması işləri görülür.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında əsası qoyulacaq yeni iqtisadi şərait Azərbaycanın büdcə gəlirlərini dəfələrlə artıracaqdır. Regionun yenidənqurulması ilə müxtəlif sahələr üzrə yeni iş yerləri açılacaq, bununla da ölkədəki işsizlik səviyyəsi xeyli aşağı düşəcək, beləliklə iqtisadiyyatın inkişafına zəmin hazırlayacaq.

## 2.3. İşğaldan azad olunmuş rayonlara investisiya qoyuluşlarının risklərinin təhlili

Qloballaşmanın töhfəsi ilə müəssisələr yeni bazarlar axtarmaq, mal və xidmət növlərini artırmaq, ticarəti asanlaşdırmaq və xərcləri azaltmaq kimi səbəblərlə beynəlxalq bazarlara açılmağa çalışırlar. Çoxmillətli şirkətləri olan ölkələrin, xüsusən də inkişaf etmiş ölkələrin səyləri ilə ölkələr arasında vahid hüquqi təcrübə müşahidə olunur.

İnvestisiya qərarının verilməsində ən mühüm amil riskin müəyyən edilməsidir. Riskdən başa düşülən investisiyanın dəyəridir və investisiya qərarı investisiyadan gözlənilən pul vəsaitlərinin investisiya dəyəri ilə müqayisəsi nəticəsində formalaşır. Daha konkret desək, investisiyadan gözlənilən gəlirin cari dəyəri investisiya dəyərinin cari dəyərindən artıq olarsa, layihə həyata keçirilə bilən hesab edilir.

Kapitalın qloballaşması ilə ölkələr arasında birbaşa xarici investisiyalar da artmışdır. Bu investisiyalar ÜDM-in artması, yeni texnologiyalar, idarəçilik təcrübəsinin edildiyi ölkəyə ötürülməsi kimi müxtəlif üstünlüklər təmin etdiyi üçün ölkələr müxtəlif siyasətlər hazırlayır və xarici kapital investisiyalarını cəlb etmək üçün bir-biri ilə rəqabət aparır.

Risk; Sığorta olunan əşyanın və ya şəxsin itməsi, zədələnməsi riski kimi müəyyən edilir. Bu tərifdə gələcəkdə baş verə biləcək potensial problemlər, təhdidlər və təhlükələrə diqqət yetirilir. Risk üçün çoxlu təriflər olsa da, diqqət çəkən məqamlar aşağıdakılardır (Kınalı C., 2006).

- Risk zəiflikdir.
- Risk qeyri-müəyyənlikdir.
- Risk faktiki nəticənin gözləniləndən fərqli olmasıdır.

Ölkə riski bütün iqtisadiyyata və buna görə də bütün iqtisadi vahidlərə təsir göstərir. Ölkə riskinin digər risklərə nisbətən daha az məruz qalma ehtimalı olsa belə, onun təsiri digər risklərdən daha böyükdür. Məsələyə bütövlükdə baxmaq zərurəti indiki mənada ölkə riski anlayışını ortaya çıxarıb.

Ölkə riski və risk təhlilinin xüsusiyyətləri aşağıdakı kimi sıralana bilər:

• Ölkə riski xarici investorlara investisiya edəcəkləri ölkədə hansı risklərlə qarşılaşa biləcəyini göstərməklə yanaşı, onlara digər ölkələrlə müqayisələr aparmağa imkan verir, beləliklə də seçim etmək lazım gəldikdə daha dəqiq qərar qəbul etmək imkanı verir.

• Ölkə riskinin təhlili transsərhəd investisiyalar üçün istifadə olunur.

• Ölkə risk analizləri eyni zamanda üzləşdiyi riskləri minimuma endirmək yollarını da göstərir.

• Ölkə riskinin təhlili onların iş görmək imkanı olan ölkələrlə bağlı qərarlara töhfə verməklə yeni iş imkanları yarada bilər.

İnkişaf etməkdə olan ölkələr tez-tez yeni investisiya imkanları təqdim etməyi təklif etməkdə maraqlı olurlar. Lakin potensial investorların öz kapitallarını bu yeni bazarlardan birinə yatırmadan əvvəl bilməli olduqları bir sıra risklər var. Bu risklər aşağıdakı kimidir:

1. **İqtisadi risk.** İqtisadi risk investisiyanın gözlənilən gəlirində əsas dəyişiklikləri yaradan iqtisadi strukturda və ya artım tempində əhəmiyyətli dəyişikliklərdir. Risk faktoru maliyyə, pul, gəlir bölgüsü və s. əsas iqtisadi dəyişənlərdə mənfi dəyişikliklər nəticəsində yaranır. İqtisadi risk faktorlarını araşdırarkən biz onları üçlü təsnifata məruz qoya bilərik. Bunlar ölkədəki iqtisadi vəziyyət, xarici iqtisadi vəziyyət və borclardır. (Yörük N., 1999).

İqtisadi vəziyyət araşdırılarkən xarici kapitala münasibət, iqtisadi siyasətin azad bazar qüvvələri və ya dövlət müdaxiləsi əsasında qurulması kimi amillər nəzərə alınır. Bundan əlavə, iqtisadi artım, işsizlik, inflyasiya, büdcə kəsirləri və investisiyaların hansı vəziyyətdə olduğuna baxmaq lazımdır. Xüsusən də investisiya qoyulan ölkədəki inflyasiya birbaşa xarici investisiyalara mənfi təsir göstərir. İnflyasiya şərtlərinin investisiya qərarlarına mənfi təsirinin ən mühüm səbəblərindən biri də inflyasiya səbəbindən layihənin gəlirlərindəki nominal artıma baxmayaraq amortizasiya xərclərinin sabit qalması səbəbindən şirkətin daha çox vergi ödəməyə məruz qalmasıdır (Emir, Mustafa ve Ahmet Kurtaran, 2005).

Dövlət Statistika Komitəsinin 2021-ci il yanvar-dekabr ayları üçün hazırladığı statistikaya əsasən demək olar ki, qeyri-neft sektorunda artım keçən il ilə

müqayisədə 7,2 faiz olmuşdur. Eyni zamanda ÜDM-də ən böyük pay (42.5 faiz) sənaye məhsullarına düşür. Artan temp göstərir ki, işğaldan azad olunmuş ərazilərə ediləcək investisiyaların iqtisadi baxımdan riski çox azdır.

2. **Kommersiya riski.** Ölkəyə sərmayə qoyulduqdan sonra müqavilə imzalanan özəl şirkət və ya yerli tərəfdaşların müqavilə şərtlərinə əməl edilməməsi riskidir. Kommersiya riskləri, iqtisadi, sosial və siyasi təzyiqlər nəticəsində iş həyatı ilə bağlı qayda və təcrübələrin dəyişdiyi və çox tez-tez rast gəlinməyən vəziyyətlərdir. Buna ümumiyyətlə inkişaf etməkdə olan ölkələrdə infrastruktur və telekommunikasiya sektorundakı çatışmazlıqlar səbəb olur və təhsilsiz, bacarıqsız və yoxsul istehlakçı profili də risk ehtimalını daha da artırır (Güngör F., 2012).

2020-ci ilə qədər belə bir risk işğal altında olan rayonlarımızda mövcud idi. Çünki bu ərazilər beynəlxalq hüquqda Azərbaycan ərazisi hesab olunduğu halda, qeyri-qanuni olaraq bu torpaqlarda kommersiya fəaliyyəti ilə məşğul olmaq istəyən və məşğul olan qurumlar var idi. Hazırda isə belə bir risk artıq mövcud deyil.

3. **Transfer riski.** Bu risk qrupu əslində siyasi riskə daxildir. Sərmayə qoyulan ölkədə istehsal olunan mal və xidmətlərin xaricə daşınması, faiz gəlirlərinin, ödənişlərin və dividendlərin vətəninə köçürülməsinə qoyulan məhdudiyyətlərdən yaranan riskdir. Məsələn, hökumət xarici valyutanın xaricə çıxışını qadağan etdikdə, özəl şirkətlər xaricə mənfəət köçürə və ya heç bir ödəniş edə bilməz ki, bu da transfer riskinin ən klassik nümunəsidir (Güngör F., 2012). Transfer riski ölkənin xarici valyuta qazanma qabiliyyəti ilə ölçülür. Başqa sözlə, valyuta qazanmasında yarana biləcək çətinliklər kapital hərəkətlərinə nəzarətin ortaya çıxmasına səbəb ola bilər (Güngör F., 2012).

Xarici və yerli valyutanın ölkə ərazisindən çıxarılması və ya ölkə ərazisinə gətirilməsi Azərbaycan Dövlət Gömrük Komitəsi tərəfindən tənzimlənmişdir. Valyutanın miqdarında müəyyən bir limit olsa da, Azərbaycan ərazisində belə bir risk də mövcud deyil.

4. **Valyuta məzənnəsi riski.** Xarici investorlar sərmayə qoyduqları ölkənin valyutasından istifadə etməli olduqları üçün məzənnələrdəki dalğalanmalar və qeyri-müəyyənliklər həm şirkətlərin gəlirliliyinə, həm də istehsal sahəsi

seçimində üstünlüklərinə təsir edir. Valyuta məzənnələrindəki bu dalğalanma investorlar üçün problemlər yaratsa da, yeni imkanlar da açır. Valyuta məzənnələrində gözlənilməz dəyişikliklərin müəssisələrin maliyyə vəziyyətinə mənfi təsiri valyuta riski adlanır (Güngör F., 2012).

**Qrafik 2: 1995-2021-ci illər valyuta məzənnəsi trendi**




**Mənbə:** https://data.worldbank.org/

Azərbaycan Respublikası Mərkəzi Bankı hazırda təsbit olunmuş məzənnə sistemindən istifadə edir. Təsbit olunmuş məzənnə sistemi üzən məzənnə rejimində olan qeyri-müəyyənliyi dəf edir. Bu səbəbdən ölkəyə beynəlxalq ticarət və investisiyaların cəlb olunmasını həvəsləndirir və aşağı inflyasiyası olan bazar təmin edir.

Qrafikdən göründüyü kimi 1995-ci və 2014-ci illər arasında manatın dollara nisbəti 0,6-1 AZN arasında dəyişir. 2015-2017-ci illərin beynəlxalq səviyyədə iqtisadi dalğalanmaların olması təsbit olunmuş məzənnəyə təsir etmiş və o, 1-1,7 AZN arasında dəyişmişdir. Buna baxmayaraq, 2017-ci ildən indiyə qədər təsbit olunmuş məzənnə sabit olaraq 1,7 AZN səviyyəsində qalmışdır.

Yuxarıda qeyd olunduğu kimi təsbit olunmuş məzənnə rejimində valyutada dalğalanmalar uzun illər ərzində olmadığı üçün valyuta məzənnəsi riski azalmış olur. Bu da öz növbəsində xarici investisiyaların ölkəyə istiqamətlənməsinə şərait yaradır.

5. **Siyasi risk.** Siyasi risk və hedcinq hərtərəfli bir mövzudur. Transmilli şirkətlərin investisiya strategiyalarını müəyyən edən ən fundamental element sabit

investisiya mühitidir. Bu nöqtədə investisiya qərarlarının mühüm tərkib hissəsi kimi ev sahibi ölkəyə qarşı risk qavrayışı önə çıxır. Siyasi risk ölkənin siyasi, sosial və iqtisadi şəraitindən irəli gələn elementləri əhatə edir. Franklin R.Roota (1972) görə siyasi risk "müharibə, inqilab, hərbi çevriliş, müsadirə, vergi, valyuta məhdudiyyətləri və idxal məhdudiyyətləri kimi xarici və ya öz ölkədə mənfəət itkisinə səbəb olan müxtəlif siyasi hadisələrin baş vermə ehtimalı" kimi müəyyən edilir. Başqa bir tərifdə, siyasi risk müəyyən bir sənaye və ya müəssisəyə təsir edəcək siyasi hadisələr və ya məhdudiyyətlər kimi müəyyən edilir.

Biznesin məqsədlərinə və mənfəətlərinə təsir edən siyasi hadisələr 4 qrupa bölünür.

*1. Ev sahibi ölkədəki siyasi hadisələr:* Belə hallarda xarici şirkət ölkəyə daxil olmaq istəməz. Bununla belə, beynəlxalq şirkət, əgər mənfəət riskdən çox olarsa, riski və əldə edəcəyi mənfəəti müqayisə edərək investisiya edə bilər.

*2. İnvestor Ölkəsindəki Siyasi Hadisələr:* Beynəlxalq şirkətlərin icrası və idarə olunmasının və mühüm qərarların qəbul edildiyi mərkəzi ölkədə böhran şirkətlərə mənfi təsir göstərəcək.

*3. İnvestor və Ev Sahibi Ölkə Arasında Siyasi Hadisələr:* Bu gözlənilməz riskdir. Xarici şirkətin sərmayə qoymasından sonra iki ölkə arasında münasibətlərin korlanması nəticəsində yaranan riskdir. Ev sahibi ölkədəki istehlakçılar xarici şirkətin məhsullarını boykot edə bilər və bununla da məhsul bazarını daralda bilər. Məhsullarına olan tələbatın azalması səbəbindən şirkət itkilərlə üzləşə bilər. Yaxın keçmişdə müxtəlif ölkələrdə İsrail və Danimarka məhsullarını boykot edərək tələbatın azalması buna misal ola bilər.

*4. Qlobal Hadisələr:* Bu nadir bir riskdir. Bu, dünyaya hakim olan iqtisadi anlayışın dəyişməsi və ya dağılması ilə baş verə bilər. Siyasi risklərin qiymətləndirilməsinin əsas məqsədi ölkənin siyasi sabitlik dərəcəsini ölçmək və ölçülən riskin xarici investisiyalara mümkün təsirlərini qiymətləndirməkdir. Riskin ölçülməsində investor təkcə mövcud siyasi baxışa olan inamı deyil, həm də uzunmüddətli siyasi və iqtisadi sabitlik gözləntilərini əks etdirir (Güngör F., 2012).

Siyasi riski müəyyən edərkən bəzi suallar üzərində hərəkət etmək lazımdır. Bunları qısaca olaraq belə ifadə etmək olar:

- Ölkənin siyasi quruluşu necədir?
- Ölkədə hakimiyyət dəyişikliyi siyasət qaydaları çərçivəsində həyata keçirilirmi?
- Hərbi çevrilişlər tez-tez olurmu?
- Xarici kapitala qarşı düşmənçilik varmı?
- Ölkədə iqtisadi tarazlıq nə dərəcədə əldə edilib?
- Ölkədə işsizlik hansı səviyyədədir?
- Ölkədə kənd təsərrüfatı ilə sənaye arasında balans varmı?
- Ölkədə çoxlu siyasi partiyalar varmı?

Siyasi riskin mənbəyinə iki aspektdən baxılır. Birincisi, sərmayə qoyulacaq ölkə daxilində baş verən problemlər, ikincisi isə xarici dünyada baş verən hadisələrdən təsirləndikdə ortaya çıxan problemlərdir. (Güngör F., 2012)

**Daxili risklər.** Daxili resurslar investisiyanın yerləşdiyi ölkə ilə əlaqəli resurslardır. Siyasi risk anlayışına daxil olan müvafiq daxili siyasi amillər aşağıdakılardır:

- *Hökumət sabitliyi:* Hökumət sabitliyi investisiya qərarlarına təsir edən və investisiyaların davamlılığını şərtləndirən cəhəti ilə diqqət çəkir. Tez-tez hökumət dəyişikliyi yaşayan cəmiyyətdə bu dəyişikliklər radikal siyasətlər gətirirsə və ya zorakı sosial münaqişələri əks etdirirsə, bu, biznes əməliyyatları üçün təhlükəli mühitin göstəricisidir.
- *İdeoloji və mədəni əsas:* Sosial və psixoloji amillər xarici kapital qoyuluşlarına əhəmiyyətli dərəcədə təsir göstərir. Bu amillər keçmişdən bəzi narahatlıqlarla gələcəkdən bədbin nəticələrin gözlənməsinə səbəb olur. Beynəlxalq təşkilatlar investisiya edəcəkləri ölkələrdə insanların reaksiyasından qorxduqları üçün bəzi investisiyalardan imtina etməli olurlar.
- *Bürokratiya:* Ölkələrdə rüşvət sisteminin mövcudluğu, prosedurların çox ləng işləməsi və bürokratiyanın sümükləşməsi kimi amillər beynəlxalq bizneslər üçün çəkindirici rol oynayır.

• *Siyasi quruluş və institutlar:* Bazarda cəmiyyətin davranışı və ya açıq səhmdar cəmiyyətlərin bazardakı mövqeyi və ya təsiri siyasi risk mənbəyinin ən mühüm elementləridir. Siyasi rejimin xüsusiyyətləri ilə yanaşı, dövlət qulluqçularının və həmkarlar ittifaqı rəhbərlərinin qəbul etdiyi ölkədəki münasibətləri də ölkənin potensial investisiyalar üçün cəlbediciliyini şərtləndirən amillərdir. Ümumiyyətlə, aydındır ki, xarici investorlar öz kapitalları və kadrları üçün etimad mühiti axtarırlar və bu mühitdə qazanclarını maksimuma çatdırmağı düşünəcəklər.

• *Sosial narahatlıq, yerli üsyanlar və iğtişaşlar*: Bu cür risklər, xüsusən də müstəqillik əldə etmiş zəif inkişaf etmiş ölkələrdə daha güclüdür. (Güngör F., 2012)

• *Qanuni tənzimləmələr*: Qanuni tənzimləmələr hökumətin müdaxiləsinə bir nümunədir. Dövlət müdaxilələri ayrı-seçkiliyə yol verməyən müdaxilələr və qaydalar, ayrı-seçkilik yaradan müdaxilələr, milliləşdirmə və ayrı-seçkilik yaradan sanksiyalardır. Ayrı-seçkiliyə yol verməyən tənzimləmələr sərt olmayan və xarici şirkətlərə qarşı xüsusi hazırlanmayan qaydalardır. Bunlar istehsalda yerli xammaldan müəyyən faiz istifadə etmək öhdəliyi və investor şirkətlər üçün müxtəlif sosial və iqtisadi obyektlərin yaradılması öhdəliyidir.

**Xarici risklər.** Bunlar daha çox ev sahibi ölkənin xarici əlaqələrində yaşanan və ya tamamilə ölkə xaricində yaranan risklərdir. Eyni zamanda investisiya edilən ölkənin xarici dünya ilə münasibətlərində baş verən hadisələr də xarici siyasi risklər sırasındadır. Xarici amillərə səbəb olan amillər aşağıdakılardır:

• Ölkələr siyasi və ya iqtisadi səbəblərə görə bəzi ölkələrlə ticarət edə bilməz və ya mövcud xarici ticarətlərini minimuma endirə bilərlər. Bəzən beynəlxalq təşkilatlara bağlı ölkələri əhatə edən embarqolar ola bilər. Ölkə öz təşəbbüsündən kənarda olsa belə, belə təşkilatlara bağlı olsa, qəbul edilən qərarlara əməl etmək öhdəliyi var. Çoxmillətli müəssisələr bu cür vəziyyətlərdən mənfi təsirlənə bilər.

• Ölkənin çoxtərəfli və ya ikitərəfli müqavilələrə əsasən öhdəlik götürdüyü vəziyyətlər

• Supergüclərlə əlaqələr

• Qonşularla münasibətlər (Güngör F., 2012)

Azərbaycan ərazisində, xüsusilə, işğaldan azad olunmuş torpaqlarda potensial risklərdən ən realı təbii ki, siyasi risk hesab olunur. Çünki bu ərazi illər boyu atəşkəsin hökm sürdüyü torpaqlar olub. Hazırda torpaqlar işğaldan azad olunsa da, xarici investorlar üçün risk potensialı hələ də şamil oluna bilər. Siyasi risk faktorunun aradan qaldırmaq üçün dövlət çoxsaylı tədbirlər görür. Bunlardan biri 15 iyun 2021-ci il tarixində Türkiyə Respublikası ilə bağlanmış "Şuşa bəyannaməsi"dir. Bu bəyannaməyə əsasən Bu iki respublikadan birinə üçüncü ölkələr tərəfindən hər hansı bir təhlükə olarsa, bu ölkələr bir-birini qorumaq üçün addımlar atacaq (https://www.bbc.com/azeri/azerbaijan-57479811). Bu bəyannamənin şərtləri deməyə imkan verir ki, gələcək illər üçün uzunmüddətli investisiya riskinin qarşısı böyük miqdarda alınır.

# III FƏSİL. İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRƏ BEYNƏLXALQ MALİYYƏ TƏŞKİLATLARININ CƏLB EDİLMƏSİ İSTİQAMƏTLƏRİ

## 3.1. İşğaldan azad olunmuş rayonlara beynəlxalq maliyyə təşkilatlarının cəlb edilməsinin strategiyasının hazırlanması

Azərbaycan müstəqillik əldə etdikdən sonra həm iqtisadi-siyasi, həm də sosial və mədəni inkişaf prosesinə qədəm qoymuşdur. 30 il ərzində iqtisadiyyatın müxtəlif sahələrinə istiqamətlənmiş islahatlar ölkənin rifah səviyyəsinin qalxmasına və cəmiyyətin müasir dövrün tələblərinə uyğun texnologiyalar ilə təmin edilməsinə şərait yaratmışdır. Bunun nəticəsidir ki, 2005-ci ildən günümüzə qədər iqtisadiyyatımızın ümumi həcmi 3 dəfədən çox artmış, sosial-iqtisadi infrastrukturun qurulmasına təkan verilmiş və bunun nəticəsində yoxsulluq səviyyəsi xeyli azalmışdır.

1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanın iqtisadi gücünün artmağına böyük töhfə vermiş və regiona böyük layihələrin cəlb edilməsinə şərait yaratmışdır. Sahib olduğu təbii enerji qaynaqları ölkəni Cənubi Qafqazda enerji təhlükəsizliyinin təmin edilməsində lider mövqeyinə çatdırmış və önəmli tərəfdaşlardan biri olmuşdur.

Beynəlxalq Maliyyə Təşkilatları ilə əməkdaşlığın müstəqilliyin hələ ilk illərindən qurulması Cənubi Qafqazda iqtisadi üstünlük əldə etməyimizə səbəb olmuş, eyni zamanda hərbi sahənin də inkişafına təkan vermişdir. Bununla da, 2020-ci ilin noyabrın 10-da imzalanmış bəyanatla Azərbaycan ərazi bütövlüyünü bərpa etmişdir. İşğaldan azad olunmuş ərazilərin iqtisadi potensialı çox genişdir. Bu səbəbdən bu ərazilərə Beynəlxalq Maliyyə Təşkilatlarının cəlb edilməsi xüsusi önəm daşıyır. Beynəlxalq qurumların əraziyə cəlb edilməsi isə sistemli və davamlı islahatların keçirilməsini zəruri edir.

Yeni islahatlar keçirilməsinin zəruriliyi 2020-ci ilə qədər keçirilmiş islahatların əhəmiyyətini azaltmır. Əksinə, keçmiş illərdə aparılmış islahatlar nəticəsində məzənnənin sabit saxlanılmasına nail olunmuş, ölkə iqtisadiyyatının qlobal hadisələrdən təsirlənməsinin qarşısını böyük miqdarda almışdır. Torpaqların

işğaldan azad edilməsi ilə qədəm qoyduğumuz yeni dövr isə həyata keçiriləcək bu islahatların daha effektiv nəticə verməsinə, yüksək keyfiyyətli inkişaf mərhələsinə keçməyinə şərait yaradacaqdır.

Bu islahatlardan biri "2021-2025-ci illərdə sosial-iqtisadi inkişaf strategiyası"dır. İnkişaf strategiyası hazırlanarkən əsas diqqət beynəlxalq təşkilat və şirkətlər ilə əməkdaşlığa və dövlət qurumlarına savadlı kadrların cəlb edilməsinin təmin olunmasına ayrılmışdır.

İnkişaf strategiyası 5 illik müddəti əhatə etsə də, yenicə torpaqları işğaldan azad olunmuş bir dövlət üçün sosial-iqtisadi inkişaf məqsədləri üçün nəzərdə tutulmuş müddət uzun müddət tələb edir. Bu müddəti 2021-2030-cu illəri əhatə edəcəyini qəbul etsək, buradan belə nəticəyə gələ bilərik ki, bunun üçün təyin olunan milli prioritetlər həmin müddətə uyğun olaraq tərtib olunmalıdır.

2021-2030-cu illəri əhatə edən onillikdə 5 milli prioritet müəyyən edilmişdir:

- "dayanıqlı artan rəqabət qabiliyyətli iqtisadiyyat";
- "dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət";
- "rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı";
- "işğaldan azad olunmuş ərazilərə böyük qayıdış";
- "təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi". (http://e-qanun.az/framework/46813)

Milli prioritetlərin bu cür müəyyənləşdirilməsi təsadüfi deyil. Bu prioritetlər hazırlanarkən Birləşmiş Millətlər Təşkilatının (BMT) təşkilatçılığı ilə həyata keçirilən "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik" əsas götürülmüşdür.

**Dayanıqlı artan rəqabət qabiliyyətli iqtisadiyyat**

Uzunmüddətli dövrdə həyata keçirilən islahatların uğurlu olması üçün atılan addımların sağlam və tarazlı olmağı şərtdir. Bu cür addımlar nəticəsində iqtisadi artımın davamlılığını təmin etmək mümkündür. Dayanıqlı artan rəqabət qabiliyyətli iqtisadiyyat, davamlı və yüksək iqtisadi artımı və daxili və xarici təsirlərə dayanaqlılığı təmin etməlidir. Davamlı və yüksək iqtisadi artımın əsas göstəricisi adambaşına düşən milli gəlirin səviyyəsinin yüksək olması deməkdir. Buna nail olmaq üçün lazımi faktorlardan biri iqtisadiyyatın şaxələndirilməsidir. İqtisadiyyatın

şaxələnməsi qeyri-neft sektorunda özəl sektorun payının artması deməkdir. Özəl sektorun inkişafı üçün aşağıdakılar təmin olunmalıdır:

- işgüzar mühitin yaradılması;
- sağlam rəqabətli mühitin formalaşdırılması;
- hüquq-məhkəmə sisteminin şəffaflığının təmin olunması. (http://e-qanun.az/framework/46813)

O cümlədən, özəl sektorun inkişafına təsir edən xarici faktorlardan biri də birbaşa xarici investisiyaların (BXİ) cəlb edilməsidir. Buradakı vacib məqam ondan ibarətdir ki, BXİ-lərin cəlbi zamanı milli maraqların qorunmasını və investisiyaların tənzimlənməsinə nəzarət olunmasını təmin edilsin.

Özəl sektorla yanaşı dövlət sektorunda da investisiyaların iqtisadi səmərəsi və şəffaflıq səviyyəsi artırılmalıdır. İqtisadiyyatda şəffaflığın ön plana gətirilməsi kölgə iqtisadiyyatını gündəmə gətirir. Kölgə iqtisadiyyatı digər adı ilə qeyri-rəsmi iqtisadiyyat iqtisadiyyatın cəmiyyətdən və dövlətdən gizlədilən hissəsidir. Kölgə iqtisadiyyatının tam ləğvi mümkün olmasa da, onun səviyyəsinin minimuma endirilməsi davamlı və yüksək iqtisadi artımın təmin edilməsinə təkan verən amillərdən biridir.

Hər inkişaf etməkdə olan ölkə (İEOÖ) kimi Azərbaycan iqtisadiyyatının da qlobal iqtisadiyyatdan asılılığı mövcuddur. Buna görə də milli prioritet istiqamətlərindən biri də milli iqtisadiyyatın uzunmüddətli dövrdə bu asılılıq səviyyəsini azaltmaq və makroiqtisadi dayanıqlığı möhkəmləndirməkdir. İqtisadiyyatın dayanıqlı olmağı konsepsiyası yenidən şaxələnmiş iqtisadiyyat şaxələnmiş iqtisadiyyat anlayışını aktual edir.

Xarici təsirlərə dayanıqlıq dedikdə 2 məsələ nəzərdə tutulur. Bunlardan biri valyuta ehtiyatlarının dayanıqlı səviyyədə saxlanılmasıdır. Valyutanı sabit saxlamaq üçün hər il Dövlət Neft Fondundan müəyyən miqdarda vəsait dövlət büdcəsinə transfer olunur. Valyutanın dayanıqlığını təmin etmək üçün bu vəsaitin miqdarını azaltmaq istiqamətində işlər görülməlidir.

Xarici təsirlərə dayanaqlığın digər göstəricisi intizamlı borclanmadır. İntizamlı borclanma dedikdə Beynəlxalq Maliyyə Təşkilatları tərəfindən maliyyələşən

layihələrin büdcəsinə nəzarət olunmasının təmin edilməsi nəzərdə tutulur. (http://e-qanun.az/framework/46813)

**Dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət**

Yuxarıda qeyd olunduğu kimi iqtisadi artımın əsas göstəricisi adambaşına düşən milli gəlirin yüksək olmasıdır. Bundan əlavə gündəlik tələbat mallarının qiymətinin aşağı və sabit olması da əsas şərtlərdən biridir. Belə bir şəraitdə dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyətin formalaşmasından söz etmək mümkündür. Belə bir cəmiyyətin yaradılmadı aşağıdakı üç məqsədin həyata keçirilməsi ilə nəticələnə bilər:

1. İnkişafdan hər bir vətəndaşın bəhrələnməsi

İnkişafdan hər bir vətəndaşın bəhrələnməsi dedikdə cəmiyyətin hər bir üzvünün iqtisadi artımdan pay almağı nəzərdə tutulur. Buraya əməkhaqlarının artırılması, qadınların iş dünyasına çıxışının yaxşılaşdırılması, özəl sektorda muzdla işləyənlərin payının artması, sosial yardım alan şəxslərin sayının azalması, əməyin ədalətli şəkildə bölgüsü və s. daxildir.

2. Yüksək və ədalətli sosial təminat, inklüziv cəmiyyət

Ədalətli bir cəmiyyətdə onun bütün üzvləri dövlət qayğısından bərabər şəkildə faydalanmalıdır. Yoxsul təbəqəyə dövlət qayğısı ünvanlı sosial yardımla ünvanlı sosial yardımla həyata keçirilir. Son illərdə ünvanlı sosial yardımın əhatəsi genişlənmişdir. Bu da dövlət tərəfindən vətəndaşlara edilən sosial müdafiənin təcəssümüdür.

İqtisadi artım ilə cəmiyyətdə yoxsulluq səviyyəsinin aşağı salınması hədəf qoyulsa da, əlilliyi olan və ya sağlamlıq imkanları məhdud olan şəxslərə sosial təminat daha da gücləndirilməli, pensiya, təqaüd, yardım kimi sosial ödənişlərin minimum səviyyəsi artırılmalıdır. (http://e-qanun.az/framework/46813)

3. Paytaxt və regionların tarazlı inkişafı

Müstəqillik əldə edildikdən sonra əsas diqqətin neft sektoruna ayrılması regionların inkişafı baxımından fərqlərin yaranmağına səbəb olmuşdur. Belə ki, paytaxt və onun ətrafında yerləşən rayonların inkişafı digər regionlara nisbətən daha sürətlə getmişdir. Hədəfləri, strategiyaları olan bir ölkə kimi bu cür hal

yolverilməzdir. Buna görə də önümüzdəki 10 il ərzində əsas məqsəd rayonların inkişafını paytaxtın inkişaf səviyyəsinə çatdırmaqdır.

Regionların inkişafı iqtisadi artımdan başqa, həm də urbanizasiya prosesinin yavaşlamağına səbəb olur. Urbanizasiya prosesinin yavaşlamağı hava çirklənməsinin də qarşısını alır, hansı ki bu da sağlam cəmiyyətin formalaşmağında mühüm rola malikdir.

**Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı**

3-cü sənaye inqilabından sonra dünya iqtisadiyyatı yeni bir sürət əsrinə keçid aldı. Bu sürət yeni texnologiyaların bir-birinin ardınca kəşf olunmasına, ölkələrarası rəqabətin daha da artmasına səbəb olmuşdur. Təbii ki, yeni texnologiyaların yaranması və BXİ-ın ölkəyə cəlbi bu texnologiyalardan istifadə etməyi bacaran savadlı kadrların olmasına tələbat yaratmışdır. Ona görə də rəqabətli insan kapitalının formalaşdırılması prioritet istiqamətlərdən biri olaraq təyin edilmişdir. Bu prioritetə nail olmaq üçün aşağıdakı məqsədlərə çatmaq lazımdır.

1. XXI əsrin tələblərinə uyğun təhsil

Rəqabətə davamlı kadrların yetişdirilməsi sözsüz ki, ilk öncə yüksək səviyyəli təhsil tələb edir. Bunun üçün məktəbəqədər təhsildən tutmuş təhsilin hər pilləsinə dövlət tərəfindən xüsusi dəstək olmalıdır. Ali təhsilli kadrların potensiallarının daha da artırılması üçün "Xaricdə təhsil üzrə dövlət proqramı" dövlət dəstəyinin ən bariz göstəricilərindən biridir.

Orta məktəblərdə isə şagirdlərin rəqəmsal texnologiyalar ilə düzgün rəftarının təmin edilməsinə diqqət yetirilməli, onlara müasir dövrün tələblərinə uyğun yeni peşə sahələri haqqında məlumat verilməlidir.

2. Yaradıcı və innovativ cəmiyyət

Dövrün tələblərinə uyğun təhsil alan yeni nəsil – yeni beyinlər yaradıcı və innovativ cəmiyyətin yaranmasına təkan verən ən böyük qüvvədir. Dünyada gedən texnoloji proseslərə qısa bir müddətdə uyğunlaşan cəmiyyət üstünlük qazanır və qlobal rəqabət mühitində özünə yer tapa bilir. Buna görə də elmi instut və təşkilatların fəaliyyət istiqamətləri şaxələndirilməli, orta və yüksək texnologiya sahələrinin inkişafı üçün şərait yaradılmalıdır.

3. Vətəndaşların sağlam həyat tərzi

Bu məqsəd digər məqsədlərlə qarşılıqlı əlaqəlidir. Belə ki, rifahın artması, iqtisadi artım, regionların inkişafı, yeni texnologiyaların cəlbi kimi faktorlar səhiyyə sisteminin inkişafına səbəb olacaq ki, bu da vətəndaşların sağlam həyat tərzinin formalaşmasına gətirib çıxarır. (http://e-qanun.az/framework/46813)

**İşğaldan azad olunmuş ərazilərə böyük qayıdış**

Yuxarıda qeyd edildiyi kimi regionların tarazlı inkişafı vacib məqsədlərdən biridir. İşğaldan azad olunmuş rayonlar 30 ildir ki, hər cür inkişafdan geridə qalmışdır. Bu o deməkdir ki, hazırda regionlarda tarazlığın təmin olunmasına ilk olaraq işğaldan azad olunmuş rayonlardan başlamaq lazımdır. Bunun üçün ilk öncə həmin ərazidə insan kapitalı formalaşdırılmalıdır. Bir milyondan çox köçkünün öz torpaqlarına qayıdışı bu baxımdan ilk təmin olunmalı məqsədlərdən biridir. Beləliklə dayanıqlı məskunlaşma təmin oluna və regionun iqtisadiyyatının inkişafına nail oluna bilər. Dayanıqlı məskunlaşma üçün ən son texnologiyaya cavab verən yaşayış mühitinin yaradılması və “ağıllı kənd”lərin qurulması lazımdır.

İnsan kapitalından sonra ikinci ən böyük faktor regionun qlobal bazara çıxışının təmin olunmasıdır. Bu məqsədlə yeni avtomobil və hava yollarının salınması üçün işlər görülməsi zəruri tədbirlərdən biridir.

Bu prioritetin əsas məqsədi işğaldan azad olunmuş rayonlarda məskunlaşmanı və rayonların ölkə iqtisadiyyatındakı payının işğaldan əvvəlki dövrə çatdırmaqdır. Buna nail olmaq nə qədər çətin görünsə də, işğaldan azad olunmuş ərazilərin coğrafi mövqeyi, tarixi, təbii resursları buraya qısa müddətdə sərmayə cəlbi üçün şərait yaradacaqdır. (http://e-qanun.az/framework/46813)

**Təmiz ətraf mühit və “yaşıl artım” ölkəsi**

Paytaxt və regionların tarazlı inkişafından bəhs edərkən qeyd olunmuşdu ki, tarazlı inkişaf urbanizasiya prosesinin yavaşlamasına gətirib çıxarır, bu da ekoloji çirklənmənin qarşısını böyük ölçüdə alır. Bu həm də BMT-nin Baş Assambleyası tərəfindən qəbul edilmiş “Dayanıqlı İnkişaf Məqsədləri”nin prinsipləri ilə üst-üstə düşür. Belə ki, 13-cü məqsəd iqlim dəyişikliyinə qarşı mübarizəyə həsr olunmuşdur.

Həm “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”, həm də “Dayanıqlı İnkişaf Məqsədləri”nin prinsiplərinə uyğun olaraq qlobal iqlim dəyişikliklərinin qarşısını almaq məqsədilə ekoloji təmiz texnologiyaların istifadəsinə öncəlik verilməsinə, enerji ehtiyatlarının təmiz mənbələr vasitəsilə təmin olunmasına və s. tədbirlərə təşviq edilməlidir. Buradan belə nəticəyə gələ bilərik ki, təmiz ətraf mühit və “yaşıl artım” ölkəsi prioritetinə çatmaq üçün aşağıdakı iki məqsədə nail olmaq lazımdır:

1. Yüksək keyfiyyətli ekoloji mühit.

Vətəndaşların daha sağlam mühitdə yaşayışının təmin edilməsi üçün ekoloji mühitin yüksək keyfiyyətli və təmiz olmağı şərtdir. 21-ci əsrin son illlərinə qədər Bakı, Sumqayıt və ətraf ərazilərdə ekoloji cəhətdən təmiz istehsalat müəssisələrinin fəaliyyəti demək olar ki, yox səviyyəsindədir. Hazırda bunun dəyişilməsi istiqamətində işlər gedir və məsul qurumlar tərəfindən nəzarət olunur. İstehsal müəssisələrinin fəaliyyətindən əlavə iqtisadi artımı və əhalinin sayının artmasını da diqqət mərkəzində saxlamalıdır. Əhalinin sayının artması bu cür təhlükəli ola bilər ki, say artımı yeni yaşayış yerlərinin salınması deməkdir. Yeni yaşayış sahələri isə boş ərazi tələb edir. Hansı ki, bu da yaşıllıq sahələrinin payının azalması ilə nəticələnir. Bu problemin aradan qaldırılması üçün ilk öncə şəhərləşmənin qarşısı alınmalı, yaşıllıq sahələri artırılmalı və istifadə yararsız torpaqlara yeni həyat verilməlidir.

2. Yaşıl enerji məkanı

Hazırda bir çox dövlət enerji ehtiyatlarını ekoloji cəhətdən təmiz və bərpa olunan enerji mənbələri vasitəsilə təmin edir. Bu ölkələrdən əldə olunmuş təcrübələr deməyə imkan verir ki, alternativ enerji mənbələrindən istifadənin həcmi artması müsbət və lazımlı bir addımdır.

Yaşıl enerji mənbələrindən istifadənin inkişafı, iqlim dəyişikliklərinin biləvasitə olaraq azalmasına təsir göstərir. Digər tərəfdən nəqliyyat vasitələrinin istifadəsi zamanı da bərpa olunan enerji mənbələrindən istifadə olunmasına təşviq olunmalıdır. (http://e-qanun.az/framework/46813)

## 3.2. İşğaldan azad olunmuş rayonlarda xüsusi inkişaf agentliklərinin qurulması

Əvvəlki alt-fəsildə regionların tarazlı inkişafının vacibliyi ətraflı şəkildə izah olunmuşdur. Regional tarazsızlıq təkcə Azərbaycanda deyil, bir çox ölkədə müşahidə oluna bilən mühüm sosial-iqtisadi problemdir. Regional tarazsızlığın aradan qaldırılması üçün bir çox inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr tərəfindən həyata keçirilən inkişaf agentliyi aləti xüsusilə regional plan və siyasətlərin həyata keçirilməsində mühüm faktordur.

İstər əvvəlki, istərsə də mövcud iqtisad nəzəriyyəçiləri üçün iqtisadi inkişafın ən mühüm iqtisadi mənbəyi, şübhəsiz ki, sənayeləşmədir. Bir çox ölkələrdə sənayeləşmə qeyri-homogen bir paylanma göstərir. Sənayeləşmə fəaliyyəti və ya bəzi digər sosial-mədəni və iqtisadi amillər regionlararası və ölkədaxili rayonlar arasında müəyyən tarazlığın pozulmasına səbəb olmuş və eyni zamanda bu tarazlığın aradan qaldırılması yolları ilə bağlı müzakirələrə səbəb olmuşdur.

Həmin müzakirələrin diqqət mərkəzində regional inkişaf paradiqması yer alır. Regional inkişaf, nə üçün mövcud olmasından asılı olmayaraq, mövcud regional tarazlığı aradan qaldırmağa və ya ən azı minimuma endirməyə yönəlmiş siyasətlərin birliyidir. Bu siyasətlərdən danışmazdan əvvəl region və inkişaf anlayışlarının aydınlaşdırılması regional inkişaf üçün çox vacibdir.

Son illərdə qloballaşma və regionallaşma hərəkatları (regional birliklərin inkişafı), post-fordist istehsala keçid, post-modernizm, informasiyanın dəyərinin artması, iqtisadi, sosial, texnoloji və siyasi sahələrdə baş verən dəyişikliklər regionun ənənəvi konsepsiyasını daha mübahisəli hala çevirmişdir. Ənənəvi yanaşmaya görə, region "sərhədlərin müəyyən olunduğu, hökumətin nəzarətində olan və ölkə xaricinə qapalı bir vahiddir". Qlobalist yanaşmaya görə, region "münasibətlər şəbəkəsi ilə müəyyən edilən və heç bir məkan davamlılığı tələbi olmadan yerli əhali tərəfindən təşkil edilən, birbaşa beynəlxalq münasibətlərə açıq olan və sərhədlərin dəyişkən olduğu bir vahiddir". Bu izahatların işığı altında; region bir ölkədən kiçik və şəhərdən böyük olan, idarəetmə sərhədlərinin milli idarəetmə vahidinin sərhədlərində ola bilən, demokratik və daxili idarəetmə və büdcəyə

malikdir. (Armstrong H. and Taylor J., 2000) Digər bir mənbədə isə iqtisadi baxımdan regionun tərifi bu cür verilmişdir: İqtisadi baxımdan region, ərazisində ictimai istehsalın eyni element və komponentləri yerləşən və inkisaf edən ərazidir. (Mahmudov M.M., Mahmudova İ.M., 2001)

"İnkişaf" termini isə müəyyən dövrlər arasında ölkə iqtisadiyyatının yaxşılaşması və yüksəlməsi, habelə insanların həyat səviyyəsinin, istehsal olunan məhsulların keyfiyyətinin və istehsal sistemlərinin yaxşılaşdığı iqtisadi mühitə aid edilir. Bu baxımdan, "inkişaf" termini ölkədə baş verən bütün keyfiyyət və kəmiyyətin müsbət irəliləyişlərin birgə mövcudluğunu ifadə edir. Gəlir bölgüsü, demoqrafik struktur, sosial rifah kimi situasiyalar keyfiyyət baxımından, ümumi milli məhsulun həcmi isə kəmiyyət baxımından nəzərə alınır.

Bir çox ölkələrdə təkmərkəzli hökumətlər regional siyasətlərin bir əldən idarə olunmasını üstün tuturdular. Bununla da, bir ölkədə təkmərkəzli quruluşun vacib şərt kimi qəbul edilməsi regional inkişaf siyasətinin ümumi iqtisadi siyasətin tərkib hissəsi kimi həyata keçirilməsinə səbəb olmuşdur. Lakin getdikcə qloballaşan dünyada regional inkişaf siyasətləri ümumi iqtisadi siyasətin tərkib hissəsi kimi deyil, ümumi iqtisadi siyasətin törəmələri kimi və ya onlardan müstəqil olaraq qəbul edilir. Belə ki, müstəqil regiona əsaslanan siyasətlər ya daha asan və daha rasional olduğundan, ya da daha uğurlu nəticələr verdiyindən daha da məşhurlaşaraq bir çox ölkələrin iqtisadi plan və proqramlarında yer almağa başlayıb.

Əsasən regional inkişaf siyasətləri regionlar arasında iqtisadi fəaliyyəti yaxşılaşdırmaq və məşğulluğun artımını təmin etməklə regionun sosial-iqtisadi inkişafına dəstək olmaq məqsədi ilə qurulan və ümumi iqtisadi siyasətlərə uyğun gələn siyasətlər toplusudur. (Boekema F., Morgan K., Bakkers S., Rutten R., 2000)

Azərbaycanda ilk inkişaf proqramı 2004-2008-ci illəri əhatə edən "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı" olmuşdur. Bu dövlət proqramı Abşeron, Gəncə-Qazax, Şəki-Zaqatala, Lənkəran, Quba-Xaçmaz, Aran, Yuxarı Qarabağ, Kəlbəcər-Laçın və Dağlıq Şirvan iqtisadi rayonlarını əhatə etmişdir. Proqramın qarşısına qoyduğu məqsədlər aşağıdakı kimidir:

1. müəssisələrin istehsal fəaliyyətini yenidən qurmaq və yeni istehsal müəssisələrini bərpa etmək;

2. yerli resurslardan istifadənin səmərəsini çoxaltmaq;

3. regionların inkişafı üçün zəruri infrastrukturun qurulması və inkişafını təmin etmək;

4. aqrar sektorda islahatların ikinci mərhələsini sürətləndirmək, buna görə regionlarda fermerlərə həmçinin digər kənd təsərrüfatı işçilərinə kömək məqsədilə fərqli servis mərkəzləri yaratmaq, toxumçuluq bazasını genişləndirmək, texnika ilə təminatı yaxşılaşdırmaq həmçinin digər zəruri tədbirləri həyata keçirmək;

5. investorların regionlara cəlb edilməsi üçün əlverişli şəraitin yaradılmasını təmin etmək;

6. yeni iş yerlərinin yaradılmasını həvəsləndirmək;

7. əhalinin kommunal xidmətlərlə təminatını yaxşılaşdırmaq. (http://www.e-qanun.az/framework/4797)

1-ci regional inkişaf proqramının nəticələrinə görə, Ümumi Daxili Məhsulun həcmi 2.6 dəfə artmış, özəl sektorun payı 84.5% olmuş, investisiya mühiti daha da yaxşılaşdırılmış, yeni iş yerlərinin yaradılmasına təşviq olunması üçün fiziki şəxslərin vergi dərəcələrində azalma qeyd edilmişdir. Bundan əlavə sahibkarlığa dəstək olaraq onların güzəştli kreditlərlə təmin olunmasına şərait yaradılmışdır. Əhalinin kommunal xidmətlərlə təminatını yaxşılaşdırmaq məqsədilə regionlarda yeni elektrik stansiyalarının tikintisinə nail olunmuşdur. Eyni zamanda, həm daxili investisiyaların, həm də Beynəlxalq Maliyyə Təşkilatlarından ayrılan investisiyaların köməyilə Oğuz-Qəbələ-Bakı su kəmərinin inşası böyük əhəmiyyət kəsb edir. (http://www.e-qanun.az/framework/16721)

2-ci belə bir inkişaf proqramı "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"dır. Proqramın qarşısına qoyduğu məqsədlər aşağıdakı kimidir:

1. "ölkənin təbii və əmək potensialından səmərəli istifadə etməklə qeyri-neft sektorunun sürətli inkişafının təmin edilməsi";

2. “infrastruktur təminatının yaxşılaşdırılması istiqamətində tədbirlərin davam etdirilməsi”;

3. “sahibkarlıq mühitinin yaxşılaşdırılması ilə bağlı məqsədyönlü tədbirlərin həyata keçirilməsi və sahibkarlığın inkişafının daha da sürətləndirilməsi”;

4. “iqtisadiyyatın inkişafına investisiyaların cəlb olunması işinin davam etdirilməsi”;

5. “ixracyönümlü məhsul istehsalının stimullaşdırılması”;

6. “müasir tipli infrastruktur obyektlərinin yaradılması, mövcud obyektlərin beynəlxalq standartlara uyğunlaşdırılması”;

7. “əhalinin kommunal xidmətlərlə təminatının yaxşılaşdırılması;

8. əhalinin məşğulluq səviyyəsinin artırılması istiqamətində tədbirlərin davam etdirilməsi”;

9. “yoxsulluğun səviyyəsinin azaldılması”. (http://www.e-qanun.az/framework/16721)

“2009-2013-cü illəri əhatə edən sosial-iqtisadi inkişaf Dövlət Proqramı”nın nəticəsi olaraq, Azərbaycana ilk dəfə beynəlxalq reytinq agentlikləri tərəfindən kredit reytinqi verilmişdir. Bu da Azərbaycanı Cənubi Qafqazda ilk kredit reytinqi verilən ölkə edir. Yoxsulluq səviyyəsinin azaldılması üçün orta aylıq əmək haqqı səviyyəsi artmış, yoxsulluq səviyyəsi isə 5.3%-ə düşmüşdür. İqtisadiyyatın inkişafına daxili investisiyaların cəlbi 14.6 dəfə artmışdır. Sənaye sahəsində qeyri-neft sektorunun inkişafını bu illər ərzində Sumqayıt Texnologiyalar Parkı, Sumqayıt və Balaxanı Kimya Sənaye Parkları və Yüksək Texnologiyalar parkının əsası qoyulmuşdur. Bu illər ərzində infrastruktur təminatının yaxşılaşdırılması istiqamətində beynəlxalq təşkilatlar tərəfindən maliyyələşən çoxlu sayda layihələrin icrasına nail olunmuşdur. (http://www.e-qanun.az/framework/27284)

Növbəti inkişaf proqramı “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”dır. Proqramın qarşısına qoyduğu məqsədlərdən bəziləri aşağıdakı kimidir:

1. “orta illik inflyasiya tempinin və milli valyutanın məzənnəsinin məqbul səviyyədə saxlanılması”;

2. “vergi və gömrük dərəcələrinin optimal həddə müəyyənləşdirilməsi”;

3. “kənd təsərrüfatı məhsulları istehsalçılarının stimullaşdırılması tədbirlərinin davam etdirilməsi”;

4. “taxıl istehsalının artırılması və rəqabət qabiliyyətinin gücləndirilməsi”;

5. “istehsalçıların ixrac yönümlü fəaliyyətinin stimullaşdırılması”;

6. “yeni iş yerlərinin yaradılmasının stimullaşdırılması”;

7. “Ümumi Daxili Məhsulda qeyri-neft sektoru üzrə büdcə gəlirlərinin xüsusi çəkisinin yüksəldilməsi”;

8. “ərzaq təhlükəsizliyini təmin etmək məqsədilə aqrar sektorun inkişafı davam etdiriləcəkdir”. (http://www.e-qanun.az/framework/27284)

2019-2023-cü illəri əhatə edən Dövlət Proqramının qarşısına qoyduğu məqsədlərdən bəziləri aşağıdakı kimidir:

1. “regionlarda investisiya və innovasiya fəallığının artırılması üçün tədbirlərin görülməsi”;

2. “regionlarda məşğulluq imkanlarının artırılması”;

3. “regionların inkişaf potensialının reallaşdırılmasına dəstək məqsədilə yeni KOB-ların yaradılması”;

4. “paytaxtla regionlar arasında sosial-iqtisadi inkişaf səviyyəsində bərabərsizliyin daha da azaldılması”;

5. “kəndlərdə yol və nəqliyyat infrastrukturunun inkişaf etdirilməsi”;

6. “regionların inkişafı ilə əlaqədar qanunvericilik bazasının, iqtisadi və institusional mexanizmlərin təkmilləşdirilməsi”;

7. “sosial xidmətlərin çeşidinin artırılması, keyfiyyətinin yaxşılaşdırılması və aztəminatlı insanlar üçün əlçatanlığının təmin edilməsi”;

8. “yerlərdə müasir texnologiyalara əsaslanan yeni istehsal və xidmət müəssisələri şəbəkəsinin genişlənməsinin dəstəklənməsi”. (http://www.e-qanun.az/framework/41320)

Yuxarıda haqqında məlumat verilən 1-ci, 2-ci və 3-cü regionların sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramlarının məzmunu göstərir ki, bu proqramların ölkədə sosial-iqtisadi bərabərsizliyi aradan qaldırmaq, iqtisadiyyatda özəl müəssisələrin

payının artırılmasına nail olmaq, savadlı kadrların dövlət qurumlarına cəlb olunmasını təmin etmək, beynəlxalq təşkilatlar üçün investisiya mühiti yaratmaq, infrastrukturu inkişaf etdirmək kimi məqsədləri var. Bu məqsədlərin həyata keçirilməsi nəticəsində illər ərzində mövcud problemlərin pilləli şəkildə həllini tapdığını görürük.

Belə bir proqramın işğaldan azad olunmuş rayonlar üçün tətbiq edilməsi qısa müddətdə həmin rayonların sosial-iqtisadi, maddi-mənəvi gücünün bərpa olunması ilə nəticələnə bilər. Bu məqsədlə 2021-2025-ci illəri əhatə edən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin bərpası və dayanıqlı inkişafı Dövlət Proqramı" hazırlanmışdır.

Bu proqram nəticəsində nail olunması gözlənilən əsas prioritetlər bölgədə dayanıqlı məskunlaşmanı təmin etmək, iqtisadi artım səviyyəsini ölkənin digər regionlarının səviyyəsinə çatdırmaq, investorların cəlb edilməsi üçün əlverişli mühit yaratmaq, ərazinin tam şəkildə minalardan təmizlənməsini təmin etmək, orada məskunlaşacaq əhali üçün tam təhlükəsiz mühit formalaşdırmaq, ərazinin turizm potensialını dəyərləndirmək və yeni magistral, hava yollarının salınmasını təmin etməkdir.

## 3.3. Davamlı inkişaf üçün beynəlxalq maliyyə təşkilatları ilə əməkdaşlığın genişləndirilməsi

İşğaldan azad olunmuş rayonlarda müharibədən sonrakı dövrdə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə bərpa prosesinə başlanıldı. Bərpanın həyata keçirilməsi üçün əraziyə investisiya qoyuluşları və digər sərmayələrin cəlb edilməsi mühüm şərtlərdən biridir. Bu alt-fəsində işğaldan azad olunmuş rayonlarda investisiya tələb edən sahələr, sahə üzrə maliyyə mənbələrinin qoyuluşu, Yuxarı Qarabağ və Kəlbəcər-Laçın iqtisadi rayonlarının potensialı, Diaspora investisiya qoyuluşu və digər sərmayə qoyuluşları ilə tanış olacağıq. Nəzərdə tutulan bu tədbirlər nəticəsində ərazinin tarixini, mədəniyyətini və iqtisadiyyatını yenidən canlandırmaq hədəf edilir.

**İnvestisiya tələb edən sahələr.**

2-ci Qarabağ müharibəsindən sonra uzun illərdir işğal altında baxımsız vəziyyətdə qalmış və münaqişə zamanı bombardman olunmuş torpaqlara dəymiş zərərin bərpasına tez bir zamanda nail olunması bəzi sahələrin prioritet istiqamət kimi təyin edilməsini tələb edir. Ancaq bu sahələrin müəyyənləşdirilməsi elə də asan bir proses deyil. Bunun üçün xüsusi mexanizmlərə ehtiyac var. Ona görə də dünya təcrübəsi əsas götürülərək prioritet istiqamətlər müəyyənləşdirilmişdir.

1. İşğaldan azad olunmuş ərazilərin minalardan təmizlənməsi;
2. Elektrik enerjisinin təmin olunması;
3. Kritik yol xətlərinin bərpa edilməsi;
4. İçməli su, sanitar qovşaqlarının həmçinin irriqasiya sistemlərinin bərpası;
5. Ev/mənzil yaşayış sahələrinin bərpası həmçinin təminatı;
6. Humanitar yardım məqsədləri üçün hava limanının bərpa olunması (Satıcı A., 2020).

Dayanıqlı məskunlaşma üçün ilk vacib şərt burada yaşayacaq əhali üçün təhlükəsiz mühitin yaradılmasıdır. Bunun üçün ərazilərin minalardan təmizlənməsi əsas prioritetlərdən biridir. Məskunlaşma üçün digər önəmli faktor buraya gediş-gəlişin rahatlığın təmin edilməsidir. Kritik yol xətlərinin bərpası həm də imkan verir ki, burada tikintisi nəzərdə tutulmuş layihələrin icra prosesi asan başa gəlsin. İçməli su, sanitar qovşaqlarının və irriqasiya sistemlərinin bərpası burada yaşayacaq əhalinin həyat səviyyəsini yaxşılaşdırmaqla yanaşı, həm də gələcək dövrlərdə kənd təsərrüfatının müxtəlif sahələrinin inkişafı üçün zəmin yaradacaqdır. Bu prioritetlərin yerinə yetirilməsi ilkin dövrdə dayanıqlı məskunlaşmanı dəstəkləsə də, sonrakı proseslərdə iqtisadi artıma, sosial-iqtisadi vəziyyətin yaxşılaşmasına xidmət edəcəkdir. Sosial-iqtisadi vəziyyətin yaxşılaşmasının vacibliyi ondan ibarətdir ki, bunun nəticəsində digər rayonların inkişaf səviyyəsinə çatmaq və humanitar yardım asılılığından qısa müddətdə azad olmaq mümkündür. Sosial-iqtisadi vəziyyətin yaxşılaşması həm də burada məskunlaşacaq əhalinin adaptasiya prosesinin sürətlənməsinə xidmət edir. İqtisadi vəziyyətin yaxşılaşmanı həyata keçirmək üçün

əhalinin iş yeri ilə təmin edilməsi vacib şərtdir. Buna nail olmaq üçün kiçik və orta bizneslərin (KOB) fəaliyyətinin dəstəklənməsi, kənd təsərrüfatının müxtəlif sahələrinin inkişaf etdirilərək iqtisadiyyata inteqrasiyasını təmin edilməsi, turizmin inkişafı üçün əlverişli mühitin yaradılması əsasdır. Sosial-iqtisadi vəziyyətdə sabitləşməni təmin edən bir şərt də ərazinin, yəni Yuxarı Qarabağ və Kəlbəcər-Laçın iqtisadi rayonlarının iqtisadi vəziyyətinin yaxşılaşmasına xidmət edən sahələrin öyrənilməsi və həmin sahələrin inkişaf etdirilməsidir (Satıcı A., 2020).

**Sahələr üzrə maliyyə mənbələrinin qoyuluşu.**

Yuxarıda sadalananları rəhbər tutaraq demək mümkündür ki, bu işlərin həyata keçirilməsi üçün ən vacib şərt maliyyə mənbələrinin tapılmasıdır. Bərpa prosesinin sürətli olması üçün bir yox, bir neçə maliyyə mənbəyinin prosesə cəlb olunması vacibdir. Maliyyə mənbələri aşağıdakılar ola bilər:

- Beynəlxalq Maliyyə Təşkilatları
- Dövlət orqanları
- QHT-lər və vətəndaş cəmiyyətləri
- Özəl sektorlar və s. (Satıcı A., 2020).

İnvestisiya edilərkən maliyyə mənbələrindən investisiya ediləcək sahənin xüsusiyyətlərinə uyğun istifadə edilməsi əsas istiqamət olmalıdır. Azərbaycanda keçiriləcək əsas sosial iqtisadi layihələr aşağıdakı kimidir:

- ərazinin minalardan təmizlənməsi
- yol xətlərinin bərpası
- evlərin salınması, içməli su, sanitar və irriqasiya işlərinin aparılması
- təhsil, səhiyyə və telekommunikasiya
- KOB, kənd təsərrüfatı, bank və turizm (Satıcı A., 2020).

Bunların ən önəmlisi ərazilərin minalardan təmizlənməsidir ki, Azərbaycanda bu proses hələ 1-ci Qarabağ müharibəsindən sonrakı illərdən etibarən başlanmış və 2-ci Qarabağ müharibəsindən sonra əhəmiyyəti daha da artmışdır. Ərazilərin minalardan təmizlənməsi üçün Azərbaycan Respublikası Minatəmizləmə Agentliyi (ANAMA), ABŞ İnkişaf Agentliyi (ABŞİA), Beynəlxalq Etimad Fondu və Halo Trust təşkilatları işə cəlb olunmuşdur.

Yol xətlərinin bərpası əsas sosial layihələrdən biri olduğu üçün buraya ayrılacaq maliyyənin düzgün seçilməsi vacibdir. 1-ci fəsildə qeyd edildiyi kimi Beynəlxalq Maliyyə Təşkilatlarından Dünya Bankı, İslam İnkişaf Bankı və Asiya İnkişaf Bankının bu istiqamətdə həyata keçirilən layihələrin ərsəyə gəlməsində böyük töhfələri var. Beynəlxalq Maliyyə Təşkilatlarından başqa yerli təşkilatlardan Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) və dövlətin digər təşkilatları ilə özəl sektorun birgə əməkdaşlığı ilə yol xətlərinin bərpasına istiqamətlənən layihələr maliyyələşdirilmişdir.

Sosial layihələrdən biri də evlərin salınması, içməli su, sanitar və irriqasiya işlərinin aparılmasıdır. Bu istiqamətdə həyata keçirilən layihələrdə həm yerli, həm də xarici təşkilatların rolu böyükdür. Beynəlxalq təşkilatlardan ABŞİA, Dünya Bankı, Qırmızı Xaç Cəmiyyəti və BMT-nin İnkişaf proqramını misal göstərmək olar. Yerli təşkilatlardan isə bir çox özəl sektorda fəaliyyət göstərən müəssisələr sosial layihələrin həyata keçirilməsində iştirak etmişdirlər.

Təhsil, səhiyyə və telekommunikasiya sahəsində həyata keçirilən layihələrdə isə ARDNF, Beynəlxalq Telekommunikasiya Birliyi və QHT-lərin fəaliyyəti olduqca böyükdür. (Satıcı A., 2020)

Dünya Bankı bir çox layihədə olduğu kimi regionda KOB, kənd təsərrüfatı, bank və turizm sahələrinin inkişafına maliyyə dəstəyi göstərir. Bu istiqamətdə maliyyə dəstəyi göstərən digər təşkilatlar İslam İnkişaf Bankı, Beynəlxalq Maliyyə Korporasiyası, Asiya İnkişaf Bankıdır. Birbaşa Xarici İnvestisiyalar əsasən neft sənayesinə istiqamətlənsə də, son illərdə KOB-ların, kənd təsərrüfatının və turizmin inkişafında da müəyyən fəaliyyətləri vardır.

Sadalanan təşkilatların fəaliyyətlərini dəyərləndirdikdə aydın olur ki, arzuolunan nəticələr əldə etmək üçün ilk öncə doğru prioritetlərin seçilməsi, maliyyə resurslarının məqsədinə uyğun şəkildə investisiya edilməsi və onların fəaliyyətinə daimi nəzarət edilməsi əsas şərtlərdir. (Satıcı A., 2020)

**Yuxarı Qarabağ və Kəlbəcər-Laçın iqtisadi zonasının potensialı**

İşğaldan əvvəlki illərin təcrübəsindən aydın olur ki, işğaldan azad olunmuş iqtisadi potensialı olduqca yüksəkdir. Həmin iqtisadi gücə və daha da artığına

çatmaq üçün bu ərazilərin iqtisadi potensialının yenidən öyrənilməsinə ehtiyac var. Cədvəl 5-də İşğaldan azad edilmiş ərazilərin sahələr üzrə iqtisadi potensialı göstərilmişdir.

**Cədvəl 5: İşğaldan azad edilmiş ərazilərin sahələr üzrə iqtisadi potensialı**

| Sahələr / Rayonlar | Arıçılıq | Balıqçılıq | Taxılçılıq | Maldarlıq | Dağ-mədən sənayesi | Ət-süd məhsulları |
|---|---|---|---|---|---|---|
| Zəngilan | + | | | + | | |
| Kəlbəcər | + | + | + | + | + | + |
| Zəngilan | | | | | + | |
| Qubadlı | + | | + | + | | |
| Cəbrayıl | + | + | + | + | | |
| Xocalı | + | | | + | | |
| Laçın | + | | | + | | |
| Tərtər | + | | + | + | | + |
| Füzuli | + | | + | + | | + |
| Xocavənd | | | + | | | |

**Mənbə:** Rayon İcra Hakimiyyəti orqanlarının rəsmi internet səhifələri

Kəlbəcər-Laçın və Yuxarı Qarabağ iqtisadi rayonlarında ixtisaslasmış sahələr əsasən arıçılıq, balıqçılıq, taxılçılıq, maldarlıq, dağ-mədən sənayesi və ət-süd məhsullarıdır. Cədvəl 5-dən göründüyü kimi rayonlar arasında Kəlbəcər və Cəbrayıl rayonlarının iqtisadi potensialı daha yüksəkdir. Bu rayonlar həm ərazilərin böyüklüyü, həm də yerləşdikləri coğrafi mövqe ilə əlaqədar bu üstünlüyə sahibdirlər.

Kənd təsərrüfatı və dağ-mədən sənayesindən sonra 3-cü potensialı yüksək sahə turizm sahəsidir. Xüsusilə, dağlıq ərazidə yerləşən Kəlbəcər, Laçın və Şuşa rayonları dağ və müalicəvi turizm fərqlənir.

Əvvəlki alt-fəsillərdə qeyd edildiyi kimi işğaldan azad olunmuş rayonlarda dayanıqlı məskunlaşmanı təmin etmək üçün qarşıya qoyulmuş məqsədlərdən biri də ərazinin enerji ilə təmin edilməsidir. Bu baxımdan da region yüksək potensiala

malikdir. Belə ki, Cəbrayıl rayonunda yerləşən "Xudəfərin" və "Qız qalası" və Tərtər rayonundakı su elektrik stansiyaları ərazinin böyük bir hissəsini enerji ilə təmin etmək gücündədirlər.

Enerji potensialı yüksək olan digər rayonlarımızdan Kəlbəcər və Laçın dağlıq ərazidə yerləşdikləri üçün külək enerjisi ilə, Füzuli və Zəngilanda günəşli saatların miqdarı çox olduğu üçün günəş enerjisi ilə fərqlənirlər. (Satıcı A., 2020)

Yuxarıda sadalanan məlumatlar onu deməyə imkan verir ki, Beynəlxalq Maliyyə Təşkilatları regiona investisiya etmək ehtimalları olduqca yüksəkdir. Xüsusilə, dağ-mədən və enerji sahəsinə ediləcək investisiyalar böyük fərq yaradacaq.

**Diaspora investisiya qoyuluşu**

Kəlbəcər-Laçın və Yuxarı Qarabağ iqtisadi potensialları yüksək olsa da, müharibədən sonrakı ilk illərdə region haqqında məlumat azlığı investorları çəkindirən hallardan biridir. Ona görə də məlumatların ən qısa zamanda əldə olunması prosesin sürətlənməsi baxımından böyük əhəmiyyət kəsb edir.

Belə bir vəziyyətdə diasporaların mövcudluğu böyük əhəmiyyət kəsb edir. Diaspora dedikdə xaricdə yaşayan, Azərbaycanla əlaqəsi olan, rezident və qeyri-rezidentlər, azərbaycanlı biri ilə qohumluq əlaqəsi olan və investisiya cəlb edə biləcək iş adamları nəzərdə tutulur.

Beynəlxalq təcrübədə müharibədən sonrakı dövrdə diaspora investisiya qoyuluşuna çox rast gəlinir. Diaspora investisiya qoyuluşuna olan motivlər 3 qrupa bölünür (Riddle, L., Brinkerhoff, J.M. and Nielsen, T.M., 2008). Bunlar maliyyə gəliri, sosial status və emosional motivləridir.

- Maliyyə gəliri – bu motivdə investorların tək məqsədi sərmayə qoyduğu biznesdən gəlir götürməkdir.

- Sosial status – bu motivdə isə gəlir ilə yanaşı, həm də sosial statusun əhəmiyyəti var. Hansı ki, bu investora yatırım etmək üçün daha böyük motivasiya verir.

- Emosional – buradakı əsas motiv münaqişənin baş verdiyi ölkələr arasında haqq verdiyin ölkəyə edəcəyi töhfədən mənəvi həzz alması nəticəsində edilən investisiyadır.

Azərbaycanda bu 3 motivdən ən gözə görünən investisiya motivi emosional motivdir. Biz bunu Türkiyə Cümhuriyyətinin ölkəmizə etdiyi investisiyalardan aydın şəkildə görə bilərik. Belə ki, 100 kilometrlik Füzuli-Şuşa yolu və Füzuli Hava Limanı layihələrinin həyata keçirilməsində türk investorların iştirakı ölkəmizə edilən böyük dəstəklərdən biridir.

**Digər sərmayə qoyuluşları**

Yuxarıda qeyd edildiyini kimi müharibədən sonrakı ilk illərdə böyük həcmdə investisiyanın regiona qısa müddətdə cəlb edilməsi çətin prosesdir. İri şirkətlər üçün ancaq irimiqyaslı, milyonlarla dəyəri olan layihələr kommersiya marağı doğura bilər. (Müzəffərli N., İsmayılov E., 2010)

Bu səbəbdən bir neçə kiçik və orta biznesin birgə əməkdaşlığı ilə sərmayə qoyuluşunun həyata keçirilməsi ondan sonrakı dövr üçün böyük investisiyaların cəlb olunmasına zəmin yaradır.

Bu cür sərmayələr vençur kapital adlanır. Azərbaycanda vençur kapital anlayışı yeni olsa da, inkişaf etmiş ölkələrdə artıq 50 ildən çoxdur ki istifadə olunur.

Digər sərmayə qoyuluşu növü dövlət və özəl sektorun birgə fəaliyyəti ilə həyata keçirilən investisiya qoyuluşlarıdır. Azərbaycanda bu növ sərmayə qoyuluşundan son vaxtlar ARDNF ilə özəl müəssisələrin əməkdaşlığı nəticəsində bir sıra layihələr həyata keçirilir.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

"İşğaldan azad olunmuş rayonların iqtisadi inkişafının təmin olunmasına Beynəlxalq Maliyyə Təskilatlarının cəlb olunması" mövzusunun təhlili nəticəsində əldə olunan nəticə budur ki, Beynəlxalq Maliyyə Təşkilatları bir ölkənin, xüsusilə Azərbaycan kimi inkişaf etməkdə olan ölkələrin sosial-iqtisadi, maddi-mənəvi cəhətdən dirçəlməsində sütun rolunu oynayan əsas alətlərdir.

Tədqiqat işinin yazılmasının əsas məqsədi işğaldan azad olunmuş ərazilərin investisiya potensialını araşdırmaq və Beynəlxalq Maliyyə Təşkilatları tərəfindən kapitalın işğaldan azad olunmuş ərazilərə cəlb olunması ilə bağlı praktiki tövsiyələr hazırlamaq olmuşdur.

Dissertasiya işində işğaldan azad olunmuş ərazilərin iqtisadi potensialının müasir vəziyyətinin təhlili, iqtisadi inkişaf strategiyasının əsas istiqamətləri və investisiya qoyuluşlarının risklərinin təhlili, Beynəlxalq Maliyyə Təşkilatlarının cəlb edilməsinin strategiyasının hazırlanması və bu ərazidə xüsusi inkişaf agentliklərinin qurulması, davamlı inkişaf üçün Beynəlxalq Maliyyə Təşkilatları ilə əməkdaşlığın genişləndirilməsi istiqamətində araşdırmalar aparılmış və aşağıdakı nəticələrə gəlinmişdir:

1. 2004-2008, 2009-2013 və 2014-2018-ci illərdə keçirilmiş regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramları həyata keçirilmişdir. 2004-2008-ci illəri əhatə edən regional inkişaf proqramının nəticələrinə görə, Ümumi Daxili Məhsulun həcmi 2.6 dəfə artmış, özəl sektorun payı 84.5% olmuş, investisiya mühiti daha da yaxşılaşdırılmış, yeni iş yerlərinin yaradılmasına təşviq olunması üçün fiziki şəxslərin vergi dərəcələrində azalma qeyd edilmişdir.

2. 2009-2013-cü illəri əhatə edən sosial-iqtisadi inkişaf Dövlət Proqramının nəticəsi olaraq, Azərbaycana ilk dəfə beynəlxalq reytinq agentlikləri tərəfindən kredit reytinqi verilmişdir. Bu da Azərbaycanı Cənubi Qafqazda ilk kredit reytinqi verilən ölkə edir. Yoxsulluq səviyyəsinin azaldılması üçün orta aylıq əmək haqqı səviyyəsi artmış, yoxsulluq səviyyəsi isə 5.3%-ə düşmüşdür. İqtisadiyyatın inkişafına daxili investisiyaların cəlbi 14.6 dəfə artmışdır. Əldə edilən nəticələr

göstərir ki, bu cür Dövlət Proqramlarının davamlı olaraq işlənib hazırlanmasına və bu istiqamət üzrə layihələrin icrasına ehtiyac vardır.

3. İşğaldan azad olunmuş ərazilərdə iqtisadi artımı ölkənin digər regionları səviyyəsinə çatdırmaq üçün prioritet sahələr müəyyənləşdirilməlidir.

4. Uzunmüddətli dayanıqlı inkişaf modeli qurulmalıdır.

5. İnvestisiya qoyuluşlarından gəlir əldə etmək üçün yüksək gəlirli strateji sahələr müəyyən olunmalıdır.

6. Yuxarı Qarabağ və Kəlbəcər-Laçın iqtisadi rayonlarının təbii ehtiyatlarından və yerləşdiyi əlverişli coğrafi mövqedən səmərəli şəkildə istifadə olunmalıdır.

Dissertasiya işi aşağıdakı təklifləri edir:

1. Regionların inkişafını daha da sürətləndirmək üçün xüsusi inkişaf agentlikləri yaradılsın və bu agentliklərin hər biri yerləşdiyi regionun sosial-iqtisadi vəziyyətinə uyğun olaraq prioritet istiqamətlər seçsin.

2. Əhalinin işğaldan azad olunmuş ərazilərə qayıtması prosesinin tez bir zamanda həll edilməsi üçün zəruri tədbirlər görülsün.

3. Dayanıqlı məskunlaşmanı təmin etmək məqsədilə ərazilərin minadan təmizlənmə işinin sürətli təşkili təmin edilsin.

4. Regionlarda iqtisadi artımı təmin etmək məqsədilə dövlət və özəl sektorun əməkdaşlığına xüsusi diqqət edilsin. Özəl sektorun ÜDM-də payının artması istiqamətində işlər görülsün.

5. Beynəlxalq Maliyyə Təşkilatlarını qısa müddətdə işğaldan azad olunmuş ərazilərə cəlb etmək məqsədilə Yuxarı Qarabağ və Kəlbəcər-Laçın iqtisadi rayonlarının potensialı öyrənilsin və ictimaiyyətə çatdırılsın.

6. Beynəlxalq Maliyyə Təşkilatlarının cəlb edilməsinə qədər regiona kiçik həcmli investisiyaların edilməsinə təşviq olunsun. Vençur kapitalın Azərbaycanda inkişafına dəstək verilsin.

7. Beynəlxalq Maliyyə Təşkilatlarının regiona cəlb edilməsində prioritet sahə kimi daha çox gəlirli sahə olan dağ-mədən sənayesi seçilsin.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

### Azərbaycan dilində


1. Əliyev S.İ., Eminov A.N., Süleymanov E.B., Ələsgərova F.Q., (2016), Beynəlxalq Maliyyə Təşkilatları və Azərbaycan. Bakı, "Zərdabi-Nəşr"- 268 səh.
2. Əmiraslanov A, Azərbaycan iqtisadiyyatı və bazar münasəbətləri, Qanun Nəşriyyatı, Bakı-1998.
3. Hüseynov İ., Əfəndiyeva N. (2007) Turizmin əsasları, «Mars-Print» nəşriyyat-poliqrafiya müəssisəsi, 2007, səh. 442
4. Xəlləyev, M., 2020. MÜSTƏQİLLİK SONRASI AZƏRBAYCAN-DÜNYA BANKI MÜNASİBƏTLƏRİ (Azerbaijan–World Bank Relations After Independence).
5. Kaşiyeva Flora, "İşğaldan azad olunmuş ərazilərdə infrastukturun yaradılması mərhələli şəkildə həyata keçirilməlidir", "UNEC Ekspert" jurnalı, № 9-10, 2021, s. 38
6. Mahmudov M.M., Mahmudova İ.M., "Region iqtisadiyyatının tənzimlənməsi", "Şur" nəşriyyatı, 2001, səh. 430
7. Müzəffərli N., İsmayılov E. (2010) "Azərbaycanın post-konflikt ərazilərinin bərpası: konseptual əsaslar" "Qafqaz" nəşriyyat evi, 2010, səh. 270
8. Satıcı A. "İşğaldan azad olunmuş ərazilərin post-konflikt dövründə bərpa prosesi" 2020, səh. 6


### Rus dili


1. Акбулаев, Н.Н. и Ахмадов, Т.А., 2018. Экономические отношения Азербайджанской Республики с международными финансовыми институтами. Вестник Челябинского государственного университета, (7 (417)).


### Türk dili


1. Emir, Mustafa ve Ahmet Kurtaran, (2005), "Doğrudan Yabancı Yatırım Kararlarında Politik Risk Unsuru", Muhasebe ve Finansman Dergisi, Sayı: 28, ss: 37-47.

2. Güngör, Fatma. "Doğrudan yabancı sermaye yatırımları ve ülke riski." Master's thesis, Sosyal Bilimler Enstitüsü, Sivas, 2012.
3. Kınalı, Cenk. "Uluslararası Pazarlamada Politik Risk." PhD diss., Marmara Universitesi (Turkey), 2006.
4. Yörük Nevin, Ülke riski ve Türkiyenin Ülke Riski Derecelerindeki Değişimler, Gaziosmanpaşa Üniversitesi, İİBF yayınları № 4, Tokat, 1999

**İngilis dili**

1. Anghie, A., 2004. International financial institutions. *CAMBRIDGE STUDIES IN INTERNATIONAL RELATIONS*, *96*, pp.217-237.
2. Armstrong H. and Taylor J., 2000. *Regional Economics and Policy*, Third Edition, Blackwell Publishing, UK, pp.7-8.
3. Babb, S.L. and Kentikelenis, A.E., 2018. International financial institutions as agents of neoliberalism. *The SAGE handbook of neoliberalism*, pp.16-27.
4. Boekema F., Morgan K., Bakkers S., Rutten R., 2000. Knowledge, innovation, and Economic Growth: The Theory and Practice of Learning Regions, Edgar Elgar Publishing, UK, pp.73.
5. Riddle, L., Brinkerhoff, J.M. and Nielsen, T.M., 2008. Partnering to beckon them home: public- sector innovation for diaspora foreign investment promotion. Public Administration and Development: The International Journal of Management Research and Practice, 28(1), pp.54-66.
6. World Bank, 1978. *World Development Report 1978*. The World Bank.

**İnternet resursları**

1. http://e-qanun.az/framework/46813
2. http://www.e-qanun.az/
3. http://www.e-qanun.az/framework/16721
4. http://www.e-qanun.az/framework/27284
5. http://www.e-qanun.az/framework/33288
6. http://www.e-qanun.az/framework/41320
7. http://www.e-qanun.az/framework/4797

8. https://apa.az/az/infrastruktur/Nazir-muavini-Isgaldan-azad-olunan-razilrin-inkisafi-coxsayli-sektorlari-hat-edck-615722
9. https://azerbaijan.az/information/907
10. https://nk.gov.az/az/article/798/
11. https://president.az/az/articles/view/50474
12. https://report.az/multimedia/qarabagin-qizildan-qiymetli-mineral-sulari/
13. https://science.gov.az/az/news/open/16136
14. https://www.adb.org/
15. https://www.azerbaijans.com/content_434_az.html
16. https://www.bbc.com/azeri/azerbaijan-57479811
17. https://www.ebrd.com/home
18. https://www.isdb.org/
19. https://www.moodys.com/
20. https://www.worldbank.org/en/home

## Cədvəllərin siyahısı

**Cədvəl 1:** Yüksək reytinqli Beynəlxalq Maliyyə Təşkilatları......................................................13
**Cədvəl 2:** Azərbaycanın Beynəlxalq Maliyyə Təşkilatlarından aldığı kreditlər...........................25
**Cədvəl 3:** İşğaldan azad olunmuş rayonlarda faydalı qazıntı ehtiyatları.....................................36
**Cədvəl 4:** Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonunda olan qoruq yasaqlıqlar.......................40
**Cədvəl 5:** İşğaldan azad edilmiş ərazilərin sahələr üzrə iqtisadi potensialı.................................66

## Qrafiklərin siyahısı

**Qrafik 1:** Azərbaycanda ÜDM-in artım templərinin dinamikası..................................................22
**Qrafik 2:** 1995-2021-ci illər valyuta məzənnəsi trendi………………………………………..45

## Diaqramların siyahısı

**Diaqram 1:** Azərbaycan iqtisadiyyat sahələrində beynəlxalq kreditorlar tərəfindən ayrılmış vəsaitlərin bölgüsü.............................................................................................................23